RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 37 (8353) ÇƏRŞƏNBƏ, 19 fevral 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# HEYDƏR ƏLİYEV ZİRVƏSİNİ FƏTH EDƏN RƏHBƏR

**Hər bir xalqın sevilən, qeyri-adi missiyanı yerinə yetirən rəhbəri, sərkərdəsi, siyasətçisi və diplomatı olur və adətən onlar müəyyən dövrün, zamanın yetirməsi sayılırlar.**

**Tarixin meydana çıxardığı belə nadir şəxsiyyətlər sonralar özləri də bir tarix yaradırlar!**

Təəssüf ki, xalqın tarixində iz buraxan belə nəhəng simalar çox nadir hallarda dünyaya gəlirlər!

Özü də heç zaman unudulmurlar, çünki taleləri xidmət etdikləri xalqların, qurub dəyişdirdikləri dövlətlərin tarixi və inkişaf mərhələsi ilə elə qaynayıb qarışır ki, sonralar onları bir-birindən ayırmaq mümkün olmur!

*Azərbaycan tarixində zamanın gedişinə təsir göstərən şəxsiyyətlərin sayı bir o qədər də çox deyil. Amma dövr və zaman tələb edəndə, xüsusən əsrlərin qovuşuğunda və ictimai-iqtisadi formasiyaların yerdəyişməsində uğurla fəaliyyət göstərərək xilaskarlıq və quruculuq missiyasını müvəffəqiyyətlə gerçəkləşdirən dahilər öz sözlərini deyə, xidmətlərini göstərə bilirlər. Xüsusən Heydər Əliyev kimi titanik şəxsiyyətlər.*

Sovet dövrü özünün dəyişməz prinsip və çərçivələri, sərt qanunları və qaçılmaz cəza mexanizmləri ilə daim fərqlənib.

O dövrdə seçilmək, vəzifə pillələri ilə irəliləmək olduqca çətin idi.

Hansısa məqamda kiçicik səhv ucbatından vurulub sıradan çıxmaq isə adi hal sayılırdı.

Əslində, o dövrdə siyasətçi səhvi minaaxtaran səhvinə bənzəyirdi!

Yalnız xüsusi istedad, xarizma sahibləri sona qədər yüksəlməyi, siyasi quruluşun mahiyyətindən irəli gələn kataklizmlərdən qorunmağı bacarırdılar.

**Ulu Öndər Heydər Əliyev bənzərsiz şəxsiyyət idi. Sanki Allah-Təala onu yorulmadan çalışmaq, daim qurub-yaratmaq, rəhbərlik etmək üçün yaratmışdı!**

**Qeyri-adi yaddaş, tükənməz enerji, hadisələri irəlicədən duyub qabaqlamaq qabiliyyəti vardı.**

**Tariximizin təkrarolunmaz şəxsiyyətləri sırasında Heydər Əliyev özünəməxsus layiqli yer tutur.**

Əlbəttə, hər bir insanı və şəxsiyyəti olduğu kimi təkrarlamaq mümkün deyil!

Çünki zamanın özü buna imkan vermir! Filosoflar buna öz qiymətlərini hələ qədimlərdə veriblər: "axar suya iki dəfə girmək mümkün deyil" deyimi ilə!

*Amma şəxsiyyətin, dövlət xadiminin yüksəldiyi əlçatmaz zirvənin bəzən kimsə tərəfindən fəth edildiyinin də şahidinə çevrilirik!*

*Belə hadisə nə qədər nadir olsa da, bir o qədər də xoşdur!*

*Xüsusən də zaman və siyasi kurs ardıcıl, davamlı olanda!*

❖ ❖ ❖

SSRİ mərkəzləşdirilmiş dövlət, əslində, yeni tipli imperiya sayılırdı. Burada sanki hər şey "könüllü" idi.

Sanki...

"Azad respublikalar" adlandırılan on beş "qardaş" dövlət bir tavan altında birləşmişdi: Ancaq bu "on beş qardaş"ın bir "böyük qardaş"ı vardı: hər şeyi yığıb bölüşdürən, idarə edən, son söz sahibi olan qardaş!

Həmin qardaşın adı "mərkəzi hakimiyyət" idi.

"Kiçik qardaş"ların "böyük qardaş"ın, yəni mərkəzin razılığı olmadan özünə gərək olanı götürməsi, öz marağını "böyük qardaş"ın marağı kimi təqdim etməsi çox çətin sayılırdı, maraqları uzlaşdırmaq isə asanlıqla baş tutan məsələ deyildi!

**Böyük diplomat Heydər Əliyev bunu məharətlə bacarırdı!**

MƏSƏLƏN:

- Azərbaycan SSR-də üzümçülüyün və şərabçılığın inkişafı ilə bağlı Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin xüsusi qərarının qəbuluna nail olmaqla və bu hesaba ölkəyə külli miqdarda vəsait cəlb etdirib, yeni emal müəssisələri, yaşayış məntəqələri salmaq və beləliklə, kənd əməkçilərinin güzəranını xeyli yüksəltməklə;
- ölkənin gələcək inkişafını təmin edəcək ən nadir ixtisaslar üzrə dövlət hesabına müxtəlif şəhərlərdə savadlı gənc kadrlar hazırlatmaqla;
- şəxsi nüfuzundan istifadə edərək zamanında və sonrakı dövrlərdə kara gələcək, fayda gətirəcək məişət kondisionerləri və dərin dəniz qazma qurğuları kimi nadir zavodların tikintisini paytaxt Bakıya saldırmaqla;
- ittifaq tabeli nəhəng sənaye müəssisələrinin, xüsusən neft-maşınqayırma və kimya müəssisələrinin tikintisini respublikada reallaşdırmaqla və s.

*Bəli, Ulu Öndər Heydər Əliyev bütün çərçivə, qadağa və "dəyişməz prinsiplər"ə baxmayaraq, SSRİ dövründə Azərbaycan iqtisadiyyatını formalaşdıraraq sənayeni inkişaf etdirdi, kəndin yenidən tikilib qurulmasına nail oldu və beləliklə, xalqın güzəranının, mədəni səviyyəsinin əsaslı yüksəlişini təmin etdi.*

**Bu gün eyni missiyanı eyni uğur və uzaqgörənliklə cənab İlham Əliyev dünya səviyyəsində təkrarlayır:**

- Azərbaycanın maraqları dünyanın aparıcı dövlətlərinin maraqları ilə məharətlə uzlaşdırılır, nəticədə reallaşdırılan transmilli layihələr hamı tərəfindən qəbul edilir və dəstəklənir, ölkəyə böyük miqdarda gəlirlə bahəm yüksək siyasi nüfuz da qazandırır.

**Lap sonuncu fakt:**

- bir vaxtlar "Bakı-Tbilisi-Qars"a mane olmaq istəyənlər (lakin bunu bacarmayanlar) indi onun verdiyi üstünlüklərdən - zamana və xərcə qənaət imkanından həvəslə bəhrələnirlər.

Ardı 3-cü səh.

## Prezident İlham ƏLİYEV:
## "Əminəm ki, ilin sonunda biz şəhər nəqliyyatını daha da inkişaf etmiş halda görəcəyik"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Vüsal Kərimlini qəbul edib.

AZƏRTAC xəbər verir ki, son illər şəhər nəqliyyatı ilə bağlı görülmüş işlərdən danışan **Prezident İlham ƏLİYEV** dedi:

- Bakı Nəqliyyat Agentliyi keçən ili yaxşı nəticələrlə başa vurub, görülən işlərin bir hissəsi ilə mən şəxsən tanış olmuşam. Hesab edirəm ki, agentlik üçün keçən il uğurlu olubdur. Ancaq biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik, hələ görüləsi işlər çoxdur.

Son beş il ərzində şəhərimizə yüzlərlə yeni avtobus gətirilib. Bu avtobusların hamısı dünyanın aparıcı şirkətlərinin istehsalıdır. Bu, bizim şüurlu seçimimizdir. Çünki Bakıda ən müasir texnologiyalar tətbiq edilməlidir, o cümlədən nəqliyyat vasitələrinin dünyanın ən yüksək standartlarına cavab verməsi əsas şərtlərdən biridir. Onu da bildirməliyəm ki, beş il bundan əvvəl Bakıya gətirilmiş ilk xarici istehsal olan avtobuslar hətta o avtobusların istehsal olunduğu ölkələrdə hələ xətlərə çıxmamışdı. Yəni ən müasir avtobuslar gətirilir. Əlbəttə ki, bu, şəhər nəqliyyatının böyük dərəcədə yaxşılaşdırılması istiqamətində çox önəmli addımdır. Mənim göstərişimlə hər il dövlət büdcəsindən kifayət qədər böyük vəsait ayrılır və hər il orta hesabla 300 avtobus Bakı Nəqliyyat Agentliyinin xətti ilə şəhərimizə gətirilir. Beləliklə, biz avtobus parkını tədricən müasirləşdiririk. Eyni zamanda, mənim özəl şirkətlərə də tövsiyəm ondan ibarət idi ki, onlar da öz avtobus parklarına yenidən baxsınlar. Görürəm ki, bəzi şirkətlər bu istiqamətdə önəmli addımlar atırlar.

Avtobusların ölkəmizə gətirilməsi, əlbəttə ki, işlərin bir hissəsidir. Bütün yol-nəqliyyat infrastrukturu müasir tələblərə cavab verməlidir və bu istiqamətdə kompleks tədbirlər görülür. Yol infrastrukturuna görə Azərbaycan dünya miqyasında 27-ci yerdədir. Bu da Davos Forumunun hesabatında əksini tapıbdır.

Şəhər nəqliyyatı ilə bağlı digər tədbirlər də görülür və görüləcəkdir. Eşitmək istərdim ki, keçən il görülmüş əsas işlər nədən ibarət idi? Bu il neçə yeni avtobus gətiriləcək və şəhər nəqliyyatında hansı yeniliklər olacaq?

Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri **Vüsal KƏRİMLİ** dedi:

- Çox sağ olun, cənab Prezident. Keçən il Bakı şəhərində fəaliyyət göstərən 2200 avtobusla 801 milyon sərnişin daşınıb. Ümumi daşıyıcıların sayı 65-dən 37-yə endirilib. Yəni iki avtobusu olan şəxslər var idi ki, onlar da fəaliyyət göstərmək istəyirdilər. Aydın məsələdir ki, onlar insanların rahatlığı üçün deyil, öz maraqları naminə fəaliyyət göstərirdilər. Biz onların sayını müəyyən tələblər əsasında 65-dən 37-yə endirdik. Ümumilikdə beş il ərzində 855 avtobus yenilənib. Bunlardan 600-ü Sizin tapşırığınızla xarici ölkələrdən gətirilib. Daşıyıcılar tərəfindən də Bakı Nəqliyyat Agentliyinin tələbləri əsasında 295 müasir avtobus gətirilib. Ümumilikdə bu günədək avtobus parkı 40 faizə yaxın yenilənib. Sizin tapşırığınıza əsasən hər il 300 avtobus gətirilməklə yaxın üç ildə parkın yenilənməsini 100 faizə çatdırmağı planlaşdırırıq.

Eyni zamanda, məlumat üçün bildirim ki, bizim gətirdiyimiz yeni avtobuslar ətraf mühitə daha az zərər verən sıxılmış təbii qazla (STQ) işləyir. Dünyanın bir sıra böyük şəhərlərində STQ ilə az sayda avtobus işləyir. Məsələn, Vyanada STQ ilə işləyən avtobuslar, ümumiyyətlə, yoxdur. Berlində bu istiqamətdə pilot layihənin tətbiqinə başlanılıb. Moskvada 6475 avtobusdan 319-u, İstanbulda isə 3070 avtobusdan 239-u STQ ilə işləyir. Amma bizdə 2200 avtobusdan 600-ü artıq STQ ilə fəaliyyət göstərir. Daşıyıcılara da göstəriş verilib ki, STQ ilə işləyən avtobuslar gətirsinlər. Çünki benzinlə və dizel yanacağı ilə işləyən avtobuslar şəhərdə orta sürətlə hərəkət etdiyi üçün ətraf mühitə daha çox ziyan vurur.

Ardı 2-ci səh.

## Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminatında etibarlı tərəfdaşdır

### Bu, Prezident İlham Əliyevin Münxen görüşlərində bir daha təsdiqləndi

Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi strategiyası, o cümlədən neft və qaz sahəsində qazanılan nailiyyətlər dünyanın diqqət mərkəzindədir. Bunu 56-cı Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən görüşlər və aparılan söhbətlər bir daha təsdiq etdi.

Almaniyanın Şərqi Biznes Assosiasiyasının baş icraçı direktoru Mixael Harms Prezident İlham Əliyevlə görüşündə ölkəmizin iqtisadiyyatın müxtəlif sahələrində apardığı genişmiqyaslı işləri qeyd etməklə yanaşı, əsas gücünün neft-qaz sektoru olduğunu vurğuladı.

Konfransın iştirakçıları Prezident İlham Əliyevin "Enerji təhlükəsizliyi" mövzusunda keçirilən "dəyirmi masa"dakı çıxışını yüksək dəyərləndirdilər. Çünki bu, Azərbaycanın son illərdə enerji sahəsində qazandığı misilsiz uğurların daha bir təqdimatı idi.

Azərbaycanın təşəbbüsü və liderliyi ilə həyata keçirilən "Cənub qaz dəhlizi" layihəsinin dörd seqmentindən üçü artıq hazırdır. Keçən il dəhlizin "birləşdirici halqası" adlandırılan TANAP-ın (Trans-Anadolu Qaz Boru Kəməri) çəkilişi tam başa çatdı. Yəni Türkiyənin ərazisində 1900 kilometrə yaxın məsafə boyu uzanan kəmər Yunanıstan sərhədinə çatdı. Cari ilin sonunadək dəhlizin axırıncı hissəsinin - TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) tikintisi də tamamlanacaq. Bununla da 3500 kilometr uzunluğunda dəhliz bütöv bir sistem kimi istismara veriləcək.

Məlum olduğu kimi, "Cənub qaz dəhlizi" layihəsində 7 ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliya iştirak edir. Üç Balkan ölkəsi - Bosniya və Herseqovina, Monteneqro və Xorvatiya öz ərazilərindən keçən, xüsusilə İonik-Adriatik kəmərinin tikintisini nəzərdə tutan ikinci mərhələdə layihəyə qoşulmaqla bağlı anlaşma memorandumu imzalayıb.

Ardı 3-cü səh.

## Mərkəzi Seçki Komissiyasının iclası keçirilib



Məzahir Pənahovun sədrliyi ilə fevralın 18-də Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib. Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, iclasda 2020-ci il fevralın 9-da Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş seçkilərlə bağlı MSK-ya daxil olan müraciətlərə baxılıb.

Seçki Məcəlləsində nəzərdə tutulmuş müddətdə və qaydada iclasa çıxarılan müraciətlər maraqlı subyektlərin və ərizəçilərin də iştirakı ilə geniş müzakirə edildikdən sonra müvafiq qərarlar verilib. Komissiya müxtəlif mənbələrdən əldə olunan məlumatlar əsasında Milli Məclisə seçkilər keçirilən 16 seçki məntəqəsində - 123 saylı Kəlbəcər seçki dairəsinin 16, 79 saylı İmişli seçki dairəsinin 14, 16, 21, 23 və 25, 32 saylı Suraxanı üçüncü seçki dairəsinin 4, 8 və 9, 9 saylı Binəqədi ikinci seçki dairəsinin 31 və 35, habelə 29 saylı Səbail seçki dairəsinin 1, 5, 9, 11, 17 və 25 saylı seçki məntəqələrində seçicilərin iradəsinin müəyyənləşdirilməsinin qeyri-mümkünlüyünü və seçki qanunvericiliyinin tələblərinə zidd olan digər halları nəzərə alaraq sözügedən seçki məntəqələri üzrə səsvermənin nəticələrini ləğv edib.

Milli Məclisə seçkilərin izlənməsinə qatılan beynəlxalq müşahidəçilərin və kütləvi informasiya vasitələri nümayəndələrinin iştirak etdiyi iclasda cari məsələlərə də baxılıb.

## Ermənilər sosial şəbəkələrdə od püskürdülər:
## «İlham Əliyev Paşinyanı rüsvay etdi»

### "Niyə Azərbaycan Prezidentinə həmişə "hə", bizə isə "yox" deyirlər?"

***Ötən 17 ildə Azərbaycan və Ermənistan dövlət başçılarının iştirak etdiyi beynəlxalq tədbirlər, sammitlər, debatlar daim ciddi bir nəticə ilə yekunlaşıb: İlham Əliyev həmişə işğalçı ölkə rəhbərliyini ifşa edib, onları rəzil hala salıb və dünya erməniliyinin əsl məkrli mahiyyətini danılmaz, əsaslı faktlarla açıqlayıb. Münxen Təhlükəsizlik Konfransında olduğu kimi...***

***Münxendəki debatda da Prezident İlham Əliyevin Qarabağla bağlı növbəti dəfə qətiyyətli mövqeyi Nikol Paşinyana, bütünlükdə erməni ictimaiyyətinə, həmçinin Ermənistanın havadarlarına olduqca layiqli bir cavab oldu. Bu hadisə Ermənistanda ciddi ajiotaj doğurdu və işğalçı ölkədə Paşinyanın sərt cavab aldığını söylədilər. Bunu erməni mediasından və sosial şəbəkələrdən də aydın izləmək olar.***

### "Nikol Paşinyan İlham Əliyevə biabırcasına məğlub oldu"

Son günlərdə sosial şəbəkələrin erməndilli seqmentini Azərbaycan və Ermənistan rəhbərlərinin Münxendə debatdakı müzakirələri zəbt edib. Debat Azərbaycanda nə qədər müsbət reaksiya doğursa da, ermənilərdə də elə o miqyasda böyük bir xof, ümidsizlik yaradıb. Ermənistanda hesab edilir ki, Paşinyan növbəti dəfə İlham Əliyevin qarşısında aciz duruma düşdü, dili topuq vurdu. O cümlədən Paşinyanın sınıq-salxaq ingiliscəsi lağ obyektinə çevrildi. Erməni ekspertlər, sosial şəbəkə istifadəçiləri tərəfindən yer alan maraqlı status və şərhləri oxucuların diqqətinə çatdırırıq.

Ardı 6-cı səh.

# Prezident İlham ƏLİYEV: “Əminəm ki, ilin sonunda biz şəhər nəqliyyatını daha da inkişaf etmiş halda görəcəyik”

Əvvəli 1-ci səh.

Bu il üçün daha bir yenilik müxtəlif yerlərdə avtobuslar üçün habların yaradılması olacaq. Siz keçən ilin sentyabr ayında “Koroğlu” habının açılışında bu barədə tapşırıq vermisiniz.

Avtobus sürücüləri ilə bağlı əsas problemlərdən biri onların peşə hazırlığına və iş rejiminə daşıyıcılar tərəfindən ciddi nəzarət olunmamasıdır. Biz bu problemin üzərində işləyirik. Bu məqsədlə Sürücü Təlim Mərkəzi yaradılıb və Siz onun açılışında iştirak etmisiniz. İndiyədək 2800-dən çox avtobus sürücüsü mərkəzdə təlim keçib.

Yol infrastrukturu üzrə də bir sıra işlər görülüb. Avtobusların, təcili tibbi yardım və yanğınsöndürən maşınların tıxaclarda qalmaması, eyni zamanda, fasiləsiz hərəkətini təmin etmək üçün yollarda xüsusi zolaqlar ayrılıb. Bundan əlavə, 2018-ci ildə taksi xidmətinə dair yeni tələblər müəyyənləşdirilib. Bu tələblərdə şəhərdə və hava limanında hansı növ taksilərin fəaliyyət göstərməsi, tariflər əksini tapıb. Cənab Prezident, biz bu ilin birinci yarısında bütün marşrut xətlərində işləyən avtobuslarda ödənişin kart sistemi ilə aparılmasını təmin edəcəyik. Bu isə Sizin tapşırdığınız kimi, kölgə iqtisadiyyatının, eyni zamanda, qeyri-formal iş rejiminin aradan qaldırılmasına, sürücülərin 8 saatdan artıq işləməsinin qarşısının alınmasına, ictimai nəqliyyatdakı dövriyyənin şəffaflaşmasına imkan yaradacaqdır.

Ümumilikdə bizim əsas məqsədimiz sərnişinlərin daha az vaxt sərf edərək mənzilbaşına rahat, təhlükəsiz çatmasıdır. Bunun üçün nəinki Bakı Nəqliyyat Agentliyi, eyni zamanda, ictimaiyyət də fəal olmalıdır. Çünki şəxsi nəqliyyat vasitəsilə bir nəfər gedir, avtobusda isə 70-80 nəfərə qədər sərnişin olur. O bir nəfər avtomobilini yolda qeyri-qanuni park etdiyinə görə, avtobusun hərəkəti üçün çətinliklər yaradır. Son zamanlar parkinqlə bağlı cərimələrə görə insanların müəyyən narazılıqları olur. Amma Bakı paytaxt şəhərimizdir, bütün ölkələrin paytaxt şəhərlərində olduğu kimi, bizdə də insanlar avtomobillərini istədikləri yerlərdə park edə bilməzlər. Çünki əsas ictimai nəqliyyatdır, biz gün ərzində 2 milyon 200 sərnişin daşıyırıq. Sakinlər, əsasən, ictimai nəqliyyatdan istifadə edirlər. Ona görə, Sizin tapşırığınıza əsasən, biz ictimai nəqliyyatdan istifadə edən sərnişinlərin rahatlığını təmin etməyə çalışırıq.



**Prezident İlham ƏLİYEV:**

- Əlbəttə, şəhər nəqliyyatının təkmilləşdirilməsi hər bir böyük şəhər üçün önəmli məsələdir. Şadam ki, son illər ərzində Bakı şəhərində görülmüş işlər kompleks xarakterlidir və bu işlər nəqliyyatla bağlı bütün sahələri əhatə edir. Çox yaxşı haldır ki, hazırda bütün nəqliyyat növləri arasında koordinasiya işləri də aparılır. Hesab edirəm ki, taksi, metro və avtobus xidmətləri növbəti mərhələdə bir-biri ilə daha da sıx əlaqədə olmalıdır. Əsas məsələ tıxacların azaldılmasıdır. Əlbəttə ki, bunun üçün təkcə yeni yolların çəkilişi, yeni qovşaqların tikintisi ilə işimizi məhdudlaşdıra bilmərik. Amma o da həqiqətdir ki, əgər son 10-12 il ərzində Bakıda böyük yol infrastrukturu layihələri icra edilməsəydi, bu gün şəhər nəqliyyatı tıxacdan tərpənə bilməzdi. Bu, həqiqətdir. Sadəcə, 10 il bundan əvvəl mövcud olan mənzərəyə qayıtmaq lazımdır ki, bunu hər kəs görsün və bilsin. Bizim əsas nəqliyyat damarlarımız demək olar ki, tamamilə iflic vəziyyətdə idi. Şəhəri hava limanı ilə birləşdirən əsas yol, baxmayaraq ki, dördzolaqlı sayılırdı, əslində, ikizolaqlı idi və bu yol boyunca bir neçə dairə mövcud idi. Ancaq bu gün bir dənə də dairə yoxdur, yəni hava limanından şəhərə çox rahat gəlmək üçün bütün imkanlar var. Təkcə bu deyil, hava limanına digər avtomobil yolunun çəkilişi də böyük əhəmiyyət daşıyır. Zığ istiqamətindən hava limanına, ümumiyyətlə, yol yox idi. O vaxt biz təşəbbüs göstərərək onu icra etdik və bu, bir çox məsələləri həll etdi. Eyni zamanda deyə bilərəm ki, son illərdə Bakı şəhərində görülmüş işlərin, tikilmiş körpülərin, yol qovşaqlarının bəlkə də misli-bərabəri yoxdur.

Ancaq bununla yanaşı, nəqliyyat vasitələrinin sayı artır. Bu da əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasından xəbər verir. Statistika var, hər il ölkəmizə gətirilən və artıq hazırda ölkəmizdə istehsal olunan nəqliyyat vasitələrinin sayı artmaqdadır. Əhalimiz artır, Bakı şəhərinin əhalisi artır. Ona görə, şəhər nəqliyyatımız bu artıma uyğun şəkildə inkişaf etməlidir və bu artımla uzlaşmalıdır. Odur ki, bundan sonra metro tikintisi, yeni qovşaqların inşası, Bakı dairəvi dəmir yolunun çəkilişinin başa çatdırılması, avtobus nəqliyyatının səmərəli fəaliyyəti - bütün bu nəqliyyat seqmentləri vahid bir mexanizm kimi işləməlidir. Əsas məsələ insanların yola sərf edəcəyi vaxtın azaldılmasıdır.

Bununla bərabər, bəlkə də bundan daha vacib məsələ təhlükəsizlikdir, sürücülərin hazırlanmasıdır, onların tibbi müayinəsi və iş qrafikidir. Mən bu yaxınlarda bildirdim ki, heç kim gündə 8 saatdan artıq işləməməlidir. Əgər kimsə işçiləri qanunsuz işlədirsə, istismar edirsə, cəzasını alacaq. Əlbəttə, əminəm ki, Bakı Nəqliyyat Agentliyində çalışan sürücülər bu meyarlara riayət edirlər. İnsanların rahatlığı da vacib məsələdir. İnsanlar müasir avtobuslarda özlərini çox rahat hiss edirlər. Prinsip etibarilə elə bir avtobus xidməti olmalıdır ki, hətta şəxsi nəqliyyat vasitəsi olan insanlar da şəhər nəqliyyatı ilə hərəkət etməyə üstünlük versinlər. Hesab edirəm ki, biz bu hədəfə yaxınlaşırıq. Əlbəttə, növbəti illərdə avtobus parkının təzələnməsi istiqamətində əlavə tədbirlər görüləcək və eyni zamanda şadam ki, hazırda ölkəmizə gətirilən yeni avtobuslar ekoloji cəhətdən çox təmizdir. Çünki sirr deyil ki, havanı ən çox çirkləndirən nəqliyyat vasitələridir. Sənaye müəssisələri, ticarət obyektləri deyil, - bunun statistikası var, - nəqliyyat vasitələridir. Ona görə həm iki ildən sonra Azərbaycanda istehsal olunacaq “Avro-5” markalı benzinin bazara daxil olması bu sahədə çox böyük irəliləyişə səbəb olacaq, eyni zamanda, sıxılmış qazla və elektrik enerjisi ilə işləyən avtobusların ölkəmizə gətirilməsi, bunun üçün müvafiq infrastrukturun yaradılması zəruridir. Ona görə bu istiqamətdə əlavə addımlar atılmalıdır.

Bir də maraqlanmaq istəyirəm, - indi şəhərin mərkəzi hissələrində avtobus xidməti kifayət qədər səmərəlidir, - qəsəbələrdə vəziyyət necədir? Qəsəbələrdə avtobus nəqliyyatı ilə bağlı hər hansı bir problem varmı? Varsa, onların həlli üçün nə etmək lazımdır?

**Vüsal KƏRİMLİ:**

- Cənab Prezident, son zamanlar qəsəbələrdə bəzi evlərin yollara yaxın tikilməsi yol infrastrukturunda bir az çətinliklər yaradıb. Biz bu ilin doqquzuncu ayından sonra qəsəbələri onların yol ölçülərinə, dönmə dərəcələrinə görə mərhələli şəkildə avtobuslarla təmin edəcəyik. Çünki 12 metrlik avtobuslar bəzi qəsəbələrin yollarında hərəkət edə bilmir. Sizin tapşırığınıza əsasən bu il alınacaq 415 avtobusdan 115-i artıq sifariş edilib, 300-ü isə tenderə çıxarılacaq. Orada biz 8 və 9 metrlik avtobuslar da nəzərdə tutmuşuq ki, qəsəbələrətrafı və qəsəbələrdaxili hərəkət üçün daha təhlükəsiz, onların yoluna uyğun olsun. Eyni zamanda mart ayında daşıyıcılar tərəfindən də 50-yə yaxın avtobusun gətiriləcəyi gözlənilir. Bu avtobusların qəsəbələr istiqamətində xətlərə buraxılması nəzərdə tutulur. Qəsəbələrin yol infrastrukturuna dair layihələri biz Avtomobil Yolları Dövlət Agentliyi ilə birgə hazırlayırıq. Bu istiqamətdə də işlər yekunlaşacaq.

Biz qəsəbələrdə əsasən kiçik hablar yaratmaq istəyirik. Bu kiçik habları Siz qeyd etdiyiniz kimi, dairəvi dəmir yolunun ətrafında yaratmaq istəyirik ki, bir-biri ilə əlaqəli olsun. Vətəndaş haba gələndən sonra şəhərə istəsə dəmir yolu ilə, istəsə də avtobusla gedə biləcək.

**Prezident İlham ƏLİYEV:**

- Elədir. Bir də ki, siz parkinq ilə bağlı danışdınız. Biz burada da hər şeyə ədalətli yanaşmalıyıq. Parkinq imkanları olmalıdır ki, sonra biz vətəndaşlardan bu qaydalara riayət etmələrini tələb edək. Ona görə, bəzi hallarda sürücülər bu qaydaları kobudcasına pozurlar. Parkinq olan yerdə maşınları münasib olmayan yerlərdə saxlayıb, həm piyadalara maneə törədirlər, həm də nəqliyyata problem yaradırlar. Ancaq kifayət qədər böyük imkanlar, yəni, parkinq yerləri olmalıdır ki, biz sürücülərə bu tələbləri irəli sürək. Burada da heç bir qanun pozuntusu olmamalıdır. Qanun qarşısında hamı bərabərdir. Hamı bilməlidir ki, şəhər nəqliyyatı həm insanların rahatlığıdır, həm bizim sağlamlığımızdır, həm də havanın təmiz olmasıdır. Yenə də deyirəm, havanı ən çox çirkləndirən nəqliyyat vasitələridir, xüsusilə, tıxac olan yerdə. Tıxacın olmaması isə sizin əsas vəzifənizdir. Siz bundan sonra da aidiyyəti dövlət qurumları ilə bu istiqamətdə fəal olmalısınız. Ona görə, parkinqlə bağlı soruşmaq istəyirəm. Vəziyyət necədir və bu il hansı addımlar gözlənilir?

**Vüsal KƏRİMLİ:**

- Bu il biz parkinqlə əlaqədar bu istiqamətdə fəaliyyət göstərən beynəlxalq məsləhət xidmətlərini cəlb etmişik ki, Bakı şəhərində parkinq məsələsi nəinki infrastruktur cəhətdən, eyni zamanda, iqtisadi baxımdan analiz olunsun. Çünki şəhər zonalara bölünməlidir. Bunun gecə vaxtları var. Şəhərdə tıxac olan vaxtlarda açıq yolları analiz edib harada neçə yeraltı parkinqmi, küçə parkinqimi, yoxsa, xüsusilə molların və insanların yaşadığı əsas yerlərdə modul parkinqlər tikilməlidir və onların tarifləri olmalıdır. Şəhər mərkəzinin tarifi fərqli qiymətdə olmalıdır. “B” zonası fərqli qiymətdə olmalıdır. Bununla əlaqədar biz ilin ilk yarısının yekununda görülmüş işlərin nəticələrinə dair digər müvafiq qurumlarla birgə hesabat hazırlayıb Sizə təqdim edəcəyik.

**Prezident İlham ƏLİYEV:**

- Yaxşı, bu il görüləsi işlər çoxdur. Əminəm ki, ilin sonunda biz şəhər nəqliyyatını daha da inkişaf etmiş halda görəcəyik. Çünki bir daha demək istəyirəm, bu, insanların sağlamlığı, təhlükəsizliyi, rahatlığı üçündür. Onu da bildirməliyəm ki, dövlət xətti ilə böyük məbləğə alınan avtobuslar, əlbəttə, kommersiya baxımından bəlkə də 10 il, 20 ildən sonra özünü doğruldacaq. Biz bunu ona görə edirik ki, insanlar şəhər nəqliyyatından, avtobuslardan təhlükəsizlik şəraitində və rahat şəkildə istifadə etsinlər.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

Rəhbəri olduğunuz Yeni Azərbaycan Partiyasının fevralın 9-da Azərbaycan Respublikasının Milli Məclisinə keçirilən növbədənkənar seçkilərdə qalib gəlməsi ilə əlaqədar Sizi səmimi-qəlbdən təbrik edirəm.

Hesab edirəm ki, bu qələbə Sizin konstruktiv xarici və daxili siyasətinizin, həmçinin həyata keçirdiyiniz islahatlara Azərbaycan xalqının dəstəyinin nəticəsidir.

“Nur-Otan” Partiyasının sədri olaraq Qazaxıstanın və Azərbaycanın aparıcı siyasi qurumları arasında səmimiyyətə və etimada söykənən münasibətləri yüksək qiymətləndirirəm.

Əminəm ki, Qazaxıstan Respublikasının və Azərbaycan Respublikasının xalqları arasında əsl dostluq üzərində qurulan əməkdaşlıq bundan sonra da möhkəmlənəcək.

Hörmətli İlham Heydər oğlu, fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, bütün təşəbbüslərinizdə uğurlar, qardaş Azərbaycan xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

***Nursultan NAZARBAYEV,***
***Qazaxıstan Respublikasının birinci Prezidenti - Elbası***

## Gədəbəy rayonunun ərazisində Dəyirmançay və Qaraçay çayları üzərində yeni körpülərin tikintisinə dair əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Gədəbəy rayonunun ərazisində Dəyirmançay və Qaraçay çayları üzərində yeni körpülərin tikintisinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşunun (investisiya xərclərinin) bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 2,7 milyon (iki milyon yeddi yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 fevral 2020-ci il*

## Salyan və Biləsuvar sakinlərinin dini məsələlərlə bağlı müraciətləri dinlənilib

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı fevralın 18-də Salyan rayonundan olan vətəndaşları qəbul edib. Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov isə Biləsuvar rayon sakinləri ilə görüşüb.

Müraciətlər dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, məscidlərin təmiri, dini maarifləndirmə ilə əlaqədar icmaların layihələrinin maliyyələşdirilməsi və məscidlərin dini təyinatlı kitablarla təmin olunması kimi məsələləri əhatə edib. Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmaya ehtiyac olan bir sıra məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

## Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 24 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının İcevan rayonunun Ayqeovit kəndində yerləşən mövqelərdən Qazax rayonunun Bala Cəfərli kəndində, Berd rayonunun Ayqedzor kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Baş Qərvənd, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Azərbaycanda zərgərlik bazarının inkişaf perspektivlərinə dair müzakirələr aparılıb

Azərbaycanda zərgərlik bazarının inkişaf perspektivləri müzakirə olunub.

AZƏRTAC xəbər verir ki, fevralın 18-də “Azərbaycanda zərgərlik bazarının inkişaf perspektivləri: problemlər və imkanlar” mövzusunda sahibkarlarla görüş keçirilib. Görüşdə İqtisadiyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Vergi Xidməti, “AzerGold” QSC, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Türkiyə və Özbəkistanın qiymətli metallar üzrə ixtisaslaşmış strukturlarının nümayəndələri və sahibkarlar iştirak ediblər.



Tədbirdə çıxış edən İqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycanda qeyri-neft sektorunun davamlı və sürətli inkişafının dövlət başçısı tərəfindən qarşıya qoyulan əsas vəzifələrdən olduğunu vurğulayaraq dağ-mədən sənayesinin inkişafının ölkə iqtisadiyyatının şaxələndirilməsinin mühüm istiqamətlərindən olduğunu qeyd edib, bu sahədə dəyər zəncirinin yaradılması perspektivlərini diqqətə çatdırıb. İqtisadiyyat naziri zərgərlik sənayesində islahatların aparılmasının və əlverişli coğrafi mövqeyə, müasir nəqliyyat-logistika infrastrukturuna malik Azərbaycanın bu sahədə regional mərkəzə çevrilməsinin əsas hədəflərdən biri olduğunu bildirib.

Ölkəmizdə əlvan metallar, o cümlədən qızıl hasilatı sahəsində böyük potensialı diqqətə çatdıran İqtisadiyyat naziri beynəlxalq təcrübədən geniş istifadənin, stimullaşdırıcı tədbirlərin, şəffaf tənzimləmə siyasətinin həyata keçirilməsinin zərgərlik sənayesinin inkişafında, kölgə iqtisadiyyatının daha da azalmasında əhəmiyyətli olacağını vurğulayıb.

Dövlət Gömrük Komitəsinin (DGK) sədri Səfər Mehdiyev qiymətli metalların idxal-ixrac prosedurları və müvafiq gömrük qanunvericiliyi barədə məlumat verib. Zərgərlik sahəsinin inkişafı üçün dövlət-biznes dialoqunun aparılmasının, mövcud çətinliklərin müzakirəsinin önəmini vurğulayan DGK sədri ölkəmizdə zərgərlik ənənələrinin bərpası və milli sənətkarlığın inkişafı istiqamətində addımların atılmasının əhəmiyyətini diqqətə çatdırıb.

Azərbaycanın zəngin zərgərlik ənənələrinə malik olduğunu vurğulayan “AzerGold” QSC-nin sədri Zakir İbrahimov ölkəmizdə zərgərlik bazarının inkişaf etdirilməsi imkanları, həmçinin bazar iştirakçılarının rəqabətədavamlı fəaliyyətinə təsir edən amillər barədə fikirlərini bölüşüb. QSC sədri Azərbaycan qızılı və gümüşündən hazırlanan məhsulların ötən ilin fevral ayından pərakəndə satış bazarına çıxarıldığını bildirib, mövcud problemlərin həllinin bazarın şəffaflaşmasına, qeyri-neft sektorunda zərgərlik sahəsinin rolunun artmasına, ümumilikdə iqtisadi inkişafa töhfələr verəcəyini qeyd edib.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin idarə heyətinin sədri Orxan Məmmədov zərgərlik bazarında fəaliyyət göstərən kiçik və orta sahibkarların fəaliyyəti, bu sahədə biznesin qarşılaşdığı məsələlərə toxunaraq, sahənin inkişafı ilə bağlı təklifləri səsləndirib.

Türkiyə Xəzinədarlıq və Maliyyə Nazirliyi “Darphane və Damğa” Mətbəəsinin baş direktorunun müavini Ahmet Güven Pado “Əyar evlərinə lisenziyaların verilməsi, standartların müəyyənləşdirilməsi, qiymətli metalların laboratoriya təhlilləri”, “Özbəkzərgərsanoati” Assosiasiyası sədrinin müavini Nodir Mirahmedov “Özbəkistanda zərgərlik sənayesinin inkişafı, əyar nəzarətinin əhəmiyyəti”, Amerika Gemoloji İnstitutunun akkreditə olunmuş zərgəri, “RƏSM Jewellery” brendinin təsisçisi Rəsminə Qürbətova “Azərbaycan zərgərlik məmulatlarının ixrac imkanları”, Rəssamlıq Akademiyasının dosenti, Rəssamlar İttifaqının üzvü, zərgər-dizayner Şahin Əlipənahov “Zərgərlik ənənələrinin qorunub saxlanılması və inkişaf etdirilməsi” mövzularında çıxış ediblər.

Tədbir çərçivəsində zərgərlik sənayesinin gələcək inkişaf istiqamətlərinə dair müzakirələr aparılıb, bu sahədə islahatların həyata keçirilməsi üçün təkliflər planının hazırlanması üzrə işçi qrupunun yaradılması qərara alınıb.

## Əbülfəs Qarayev Britaniya Şurasının İncəsənət Şəbəkəsinin baş ofisində görüş keçirib

Mədəniyyət naziri Əbülfəs Qarayev Londonda Britaniya Şurasının İncəsənət Şəbəkəsinin (Arts Network) direktoru Karoline Mebay ilə görüşüb.

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə ötən il Britaniya Şurası ilə nazirlik arasında imzalanmış əməkdaşlıq memorandumu çərçivəsində həyata keçirilmiş tədbirlər və gələcək planlar barədə müzakirələr aparılıb.



Ə.Qarayev bildirib ki, ötən bir il müddətində ölkədə yaradıcı sənayenin inkişaf etdirilməsi ilə bağlı bir sıra addımlar atılıb, “Kreativ Azərbaycan” portalı və loqosu təsis olunub. Loqo bu sahədə fəaliyyətlərin əlaqələndirilməsinə və vahid istiqamətdə həyata keçirilməsinə imkan verir. Nazir Britaniya Şurası ilə birgə “Creative Spark” proqramı çərçivəsində layihə həyata keçirildiyini qeyd edib. O, həmçinin ümumilikdə yaradıcı sənayelərlə məşğul olan biznes nümayəndələri və fərdlərlə bir sıra layihələrin reallaşdırıldığını bildirib.

Nazir deyib ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə 2020-ci il ölkədə “Könüllülər ili” elan edilib. Bununla əlaqədar yaxın zamanda Kreativ Azərbaycan Könüllülük Hərəkatının yaradılması nəzərdə tutulub. Bu sahədə biznesin inkişaf etdirilməsi, biznes modellərinin yaradılması və startapların dəstəklənməsi məqsədilə ölkədə kreativ biznes mərkəzinin açılması üçün hazırda BP və digər təşkilatlarla danışıqlar aparılır.

Karoline Mebay Britaniya Şurasının Azərbaycandakı Nümayəndəliyi ilə ölkədəki tərəfdaş dövlət qurumları və Mədəniyyət Nazirliyi arasında əməkdaşlıqdan məmnun olduqlarını qeyd edərək Britaniya Şurasının fəaliyyətinə göstərilən dəstəyə görə nazir Əbülfəs Qarayevə təşəkkürünü bildirib. O qeyd edib ki, hazırda Britaniya Şurası bir sıra ölkələrdə maraqlı layihələr həyata keçirir. Bu layihələrdən ən əhəmiyyətlisi “Crafting Futures” layihəsidir. Layihə yaradıcı bizneslə məşğul olan insanlara və təşkilatlara bu sahədə bilik və bacarıqların öyrədilməsi ilə bağlı dəstək göstərməkdən ibarətdir. K.Mebay layihə ilə əlaqədar Azərbaycana səfərin təşkil olunduğunu qeyd edib.

Ə.Qarayev Britaniya Şurasının layihələrini yüksək qiymətləndirdiyini, təkcə yaradıcı sənayelərlə bağlı deyil, həm də teatr, musiqi və digər sahələrdə Britaniya Şurasının layihələrinin Mədəniyyət Nazirliyi tərəfindən dəstəkləndiyini qeyd edib. Nazir hazırda Azərbaycanda yaradıcı sənayelərin inkişafı ilə bağlı 2020-2025-ci illər üçün İnkişaf Proqramı hazırlandığını, ilkin mərhələdə proqramın konseptual təhlilinə və onun strategiyasının hazırlanmasına Britaniya Şurasının dəstəyi ilə müvafiq xarici ekspertlərin də cəlb olunduğunu bildirib. Həmçinin vurğulayıb ki, növbəti mərhələdə də bu prosesə xarici ekspertlərin cəlb olunması nəzərdə tutulur.

Görüşün sonunda gələcək əməkdaşlıq üçün irəli sürüləcək təşəbbüs və layihələrin qarşılıqlı mübadiləsi barədə razılıq əldə olunub.







# HEYDƏR ƏLİYEV ZİRVƏSİNİ FƏTH EDƏN RƏHBƏR

Əvvəli 1-ci səh.

❖ ❖ ❖

Ötən əsrin səksəninci illərində SSRİ iqtisadi qüdrətini itirməyə, bütün parametrlər üzrə geriləməyə başladı. Vəziyyətdən çıxış yolunu Sibirin zəngin təbii sərvətlərinin və xammal ehtiyatlarının işə salınmasında, daşınıb satılmasında görürdülər. Lakin bunun üçün uzun, eyni zamanda çətin coğrafi şəraitdən keçən dəmir yolu xətti çəkilməli idi.

"Baykal-Amur magistralı" ideyası belə meydana gəldi.

**"Ümumittifaq zərbəçi tikintisi" elan edilən xəttin çəkilməsi elə də asan deyildi və geriləmələr aydın görünürdü. Bu ağır və məsuliyyətli vəzifə həmin dövrdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işləyən Ulu Öndər Heydər Əliyevə həvalə olundu.**

**Heydər Əliyevin böyük təşkilatçılıq bacarığı və yaratdığı möhkəm intizam nəticəsində BAM-ın tikintisi müvəffəqiyyətlə, nəzərdə tutulan vaxtda başa çatdırıldı.**

Bu unikal dəmir yolu indi də insanlara xidmət edir.

*Ulu Öndərin çəkdiyi zəhmət yüksək qiymətləndirilərək dəmir yolu stansiyalarından birinə minnətdarlıq əlaməti kimi onun adı verilmişdir!*

● Bir neçə il əvvəl dünyada neftin qiyməti enmişdi. Yaranmış vəziyyət həm OPEC üzvlərini, həm də digər neft ixracatçılarını çətin duruma salmışdı. Sanki hamı bununla, ziyanla işləməklə barışmışdı. Davos Dünya İqtisadi Forumunda cənab İlham Əliyev OPEC-ə üzv dövlətlərin və digər neft istehsalçılarının bir araya gəlməsinin, neftin qiymətinin qalxmasına təsir göstərəcək addımların atılmasının vacibliyini söylədi. Razılaşmanın qarşılıqlı etimada əsaslanmasını, inam və işbirliyinin zəruriliyini xüsusi qeyd etdi. Onun təşəbbüsü ilə OPEC-in bir iclası Bakıda keçirildi.

**Azərbaycan Prezidenti İlham Əliyevin bu uzaqgörən təşəbbüsü öz bəhrəsini verdi, az zamanda neftin qiyməti normallaşdı.**

*OPEC-in sədri Məhəmməd Barkindo Davosdakı növbəti görüşdə bu hadisəni yenidən xatırlayaraq cənab İlham Əliyevə bir daha təşəkkür və minnətdarlığını söylədi...*

● SSRİ xalqlarını bir bayraq altında birləşdirən "xalqlar dostluğu və proletar beynəlmiləlçiliyi" prinsipi iflasa uğradı, eyni bayraq altında yaşayanlar bir-birilərinin ərazilərini işğal etdilər. Lakin Azərbaycan xalqının multikultural dəyərləri bu gün də yaşayır, dünyada sabitliyin möhkəmlənməsində, qarşıdurmaların qarşısının alınmasında, dövlətlərarası əməkdaşlığın möhkəmləndirilməsində mühüm vasitə olduğunu sübut edir.

**İlham Əliyevin təşəbbüsü ilə dünyaya örnək kimi təqdim olunan xalqımızın multikultural dəyərləri bir sıra universitetlərdə öyrənilərək tətbiq edilir. Neçə illərdir ölkəmizdə keçirilən, sivilizasiyalararası əlaqə və əməkdaşlığın möhkəmlənməsinə sağlam töhfələrini verən beynəlxalq forumlar hamı tərəfindən qəbul edilərək yüksək qiymətləndirilir.**

❖ ❖ ❖

Dövr, zaman müxtəlif, ictimai-iqtisadi formasiyalar fərqli olsa da, uğur və qələbələr eynidir. Hamısı nəticə etibarilə dövlətin güclənməsinə, xalqın sosial vəziyyətinin yaxşılaşmasına, ölkənin siyasi nüfuzunun artmasına xidmət edir.

*Oxşar məqamlara müqayisəli şəkildə nəzər salaq:*

● Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbər seçildikdən sonra ölkə sürətli inkişaf yoluna qədəm qoydu. Neft sənayesi dirçəldildi, kənd təsərrüfatında görünməmiş yüksəliş baş verdi, sənaye potensialı işə salındı, elm, mədəniyyət və təhsil sahəsində ciddi dönüş yarandı. Geridə qalmış aqrar ölkə sayılan Azərbaycan az vaxtda SSRİ miqyasında tanınmağa, şöhrət qazanmağa başladı. O dövrdə ən yaxşı işləyənlər ittifaq hökumətinin "Keçici Qırmızı Bayrağı" ilə mükafatlandırılırdı. Heydər Əliyevin rəhbərliyi dövründə hər il Azərbaycan belə bayraqlara layiq görülürdü.

*İlham Əliyevin rəhbərliyi zamanı isə müstəqil Azərbaycan nəinki Cənubi Qafqazın lider dövlətinə və söz sahibinə çevrilmiş, hətta inkişaf parametrləri ilə bütün dünyaya səs salmışdır. Qazanılan uğurlara verilən qiymət ölkəmizin adının dünyanın reytinq agentliklərinin, nüfuzlu qurumlarının tərtib etdikləri siyahıların ön cərgəsində yazılmaqla təsdiqini tapır. Üstəlik, hər il yeni reytinq cədvəllərinə düşür, qazandığımız mövqeni möhkəmləndirir, siyahılarda daha da irəliləyirik.*

● Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərliyi dövründə daim xalqla təmasda idi. Yazıçı və şairlər, elm və mədəniyyət xadimləri, başqa şəhərlərdə təhsil almağa gedən tələbə-gənclərlə görüş ənənvi xarakter daşıyırdı. Xüsusən kənd əməkçiləri ilə görüşlər, onların ruhlandırılması, zəhmətlərinin qiymətləndirilməsi daim diqqət mərkəzində saxlanılırdı.

*Cənab İlham Əliyev də xalqla ünsiyyətə xüsusi fikir verir. Ulu Öndər Heydər Əliyevdən qalan ənənələr davam etdirilməklə yanaşı, qaçqın və məcburi köçkünlər, müharibə veteranları və şəhid ailələri, əlillər və əhalinin digər qrupları ilə görüşlər, fikir mübadiləsi aparılması, mövcud problemlərin ilk mənbədən öyrənilərək operativ həlli yolunda əməli tədbirlər görülməsi xalqı razı salan məqamlardandır.*

*Prezidentin təşəbbüsü ilə kənd təsərrüfatı sahəsində çalışanların zəhmətinin qiymətləndirilməsi üçün xüsusi "Əmək" ordeni də təsis olunmuşdur.*

● Azərbaycan rəhbərliyinə gəldiyi ilk illərdə "Literaturnaya qazeta"da "Qoy ədalət zəfər çalsın" müsahibəsi ilə çıxış edən Ümummilli Lider Heydər Əliyev rüşvətxorluğa və cəmiyyətdə mövcud olan digər mənfi hallara qarşı kəskin mübarizə mövqeyi sərgilədi. Həmin dövr üçün belə bir görünməmiş addım bütün SSRİ-yə səs saldı. Heydər Əliyev sübut etdi ki, mövcud problemləri və mənfilikləri gizlətməklə onlardan yaxa qurtarmaq mümkün deyil! Əksinə, onların üzərinə getmək gərəkdir!

*Cənab İlham Əliyev də korrupsiyaya, məmur özbaşınalığına qarşı kəskin mübarizəyə başlamışdır. Bu mübarizədə aşkarlıq və şəffaflıq mühüm rol oynayır. Mübarizənin uğurunu təmin edən əsas cəhətlərdən biri elektron hökumətin qurulması, məmur-vətəndaş təmasının minimuma endirilməsidir. Bu məsələdə artıq bütün dünyada Azərbaycan brendinə çevrilən "ASAN xidmət" və "DOST" mərkəzlərinin yaradılması xüsusi rol oynayır. "Dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır", "Dövlət məmuru xalqın xidmətçisidir" çağırışını irəli sürən ölkə Prezidenti vətəndaş məmnunluğunun yaradılmasına xüsusi əhəmiyyət verir.*

*Onu da qeyd edək ki, korrupsiyaya qarşı mübarizənin vəziyyətini əks etdirən beynəlxalq reytinq cədvəlində 2019-cu ilin nəticələrinə görə Azərbaycan 30 balla daha 26 pillə irəliləmişdir.*

● Ulu Öndər Heydər Əliyev xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra həlli vacib digər problemlərlə yanaşı yeni Konstitusiyanın qəbulu və bazar iqtisadiyyatı münasibətlərinə keçidi də diqqətində saxlayırdı. Qısa zaman kəsiyində ölkə üzrə özəlləşdirmə proqramları uğurla həyata keçirildi, dövlət mülkiyyətinin özgəninkiləşdirilməsi prosesi başa çatdırıldı. Ən çətin məsələlərdən sayılan torpaq islahatı da uğurlu oldu. Beləliklə, bazar iqtisadiyyatı münasibətlərinə keçid qısa vaxtda təmin edildi.

*Cənab İlham Əliyev 2019-cu il prezident seçkilərindən sonra islahatların anonsunu vermişdi. Artıq biz hamımız baş verən ciddi dəyişikliklərin şahidiyik. Gənclərin enerjisi ilə yaşlıların təcrübəsi əlaqələndirilir, idarəetməyə yeni nəfəs, çeviklik və stimul gətirilir. İslahatlar siyasi, iqtisadi sferanı və kadr yeniləşməsini əhatə edir.*

*Adətən böhran məqamında çətinliklərdən çıxmaq üçün islahatlara əl atılır. İlham Əliyev islahatlarının xarakterik xüsusiyyəti odur ki, Azərbaycan sürətli inkişaf və yüksəliş dövrünü yaşadığı zamanda ciddi dəyişmələr aparılır. Məqsəd inkişaf sürətinin azalmasına yol verməmək, ölkənin bütün potensialını işə salmaq, dövrün çağırışlarını qabaqlamaqdır.*

**Xalqın dəstəyi başlanmış islahatların uğurla nəticələnəcəyinə zəmanətdir.**

❖ ❖ ❖

Müsəlman dünyasının böyük hissəsini təşkil edən ərəb dövlətlərinin bir qismi "demokratiya baharı"nın və rəngli inqilabların dalğalarında dağıdılaraq yerlə yeksan edildi, sərvətləri talan olundu, əhalisi ölkəni tərk etmək məcburiyyətində qalaraq "miqrant" adlandırılan qaçqınlara çevrildi. Dünya gücləri türk dövlətlərinə də eyni aqibəti yaşatmaq üçün dəfələrlə təşəbbüs göstərdilər, müxtəlif məkrli planlar işə saldılar. Lakin məqsədlərinə çata bilmədilər. Çünki bir sıra türk dövlətlərinin başında dövrün görkəmli simaları, türk dünyasının liderləri sayılan təcrübəli siyasi xadimlər dayanırlar. Ulu Öndər Heydər Əliyevdən sonra SSRİ miqyasında türk dövlət başçılarından Nursultan Nazarbayev seçilirdi. Siyasi karyerasını başa vuran N.Nazarbayev hörmət və ehtiramla aktiv siyasi fəaliyyətindən kənarlaşdı.

**Hazırda Türk dövlətlərində dünya çaplı iki qəbul olunmuş şəxsiyyət parlamaqdadır: Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev!**

Dünya liderlərinin sırasında xüsusi yeri olan bu iki şəxsiyyətin dostluğu və əməkdaşlığı bütövlükdə türk dünyasına böyük fayda və sabitlik gətirir. Onların təşəbbüskarlığı, hadisələri qabaqlama bacarıqları, qətiyyət və prinsipiallıqları bir sıra məkrli planları puça çıxarır.

*Kiçik Azərbaycanın böyük rəhbərinin dünyanın bütün nöqtələrindən baxanda görünməsi, daim nüfuzlu beynəlxalq tədbirlərə dəvət edilərək ona söz verilməsi, təşəbbüs və təklifləri dinlənilərək həyat vəsiqəsi qazanması cənab İlham Əliyevin böyük nüfuzundan, zəka və təcrübəsindən xəbər verir.*

**Bu gün İlham Əliyev təkcə Azərbaycanın deyil, bütün müsəlman dünyasının fəxri, eyni zamanda qəbul olunmuş liderlərindən biridir!**

❖ ❖ ❖

Bunu sübut edən konkret faktlar da var.

İlham Əliyevin gördüyü işlər sayəsində Azərbaycan 133 dövlətin səsini qazanaraq BMT Təhlükəsizlik Şurasına uğurla rəhbərlik etdi, müzakirələrə dünyanı düşündürən məsələlər çıxarılaraq faydalı təkliflər irəli sürüldü.

İndi isə 120 dövlətin dəstəyi ilə üç il müddətində dünyanın ikinci nüfuzlu qurumu sayılan Qoşulmama Hərəkatına və Türk Dövlətlərinin İqtisadi Əməkdaşlıq Şurasına başçılıq edəcəkdir!

**Bəli, Ulu Öndər Sov.İKP MK Siyasi Bürosunun üzvü seçilmişdi, İlham Əliyev isə artıq dünya səviyyəli təşkilatlara rəhbərlik edir!**

**Belə rəhbərlə hamı haqlı olaraq qürur duyur!**

Heydər Əliyev nadir xarakterli dövlət başçılarından idi. Dövrünün analitik təfəkkürə malik müdrik və uzaqgörən siyasətçilərindən sayılırdı.

Ən qısa müddətdə ən çətin və mürəkkəb məsələləri öyrənərək onu müvəffəqiyyətlə həll etmək, ən gərgin anlarda ən düzgün qərarlar vermək məharətinə malik idi. Dayanmadan və yorulmadan işləməyi, məqsədə çatınca irəliləməyi iş üsuluna çevirmişdi. Polad kimi möhkəm iradə, siyasi fəhm sahibi idi.

Bütün bu keyfiyyətlər həm də zəngin həyat təcrübəsi ilə yoğrulmuşdu.

Hər bir siyasətçi və dövlət xadimi üçün zəruri sayılan bu keyfiyyətlər İlham Əliyevin gen kodundadır.

Ən gərgin və çətin məqamda onun nə qədər sakit və soyuqqanlı (bəlkə də zahirən) göründüyünün, kəsərli söz söyləmək üçün son dərəcə ustalıqla əlverişli məqam və yer seçdiyinin dəfələrlə şahidi olmuşuq! Jurnalistlərin müxtəlif "çaşdırıcı" suallarına həmişə sadə və təmkinli, eyni zamanda məharətli cavabını dönə-dönə eşitmişik.

Biz bunu "Valday" Beynəlxalq Diskussiya Klubunda, MDB Dövlət Başçıları Şurasının Aşqabad görüşündə, ən nəhayət, Münxen Təhlükəsizlik Konfransında Ermənistanın baş naziri N.Paşinyanı aciz duruma salarkən də gördük.

**Bu gün İlham Əliyev Heydər Əliyev siyasi zirvəsini fəth etmiş yeganə siyasi və dövlət xadimidir!**

**Bu gün İlham Əliyev bütün türk dövlətləri tərəfindən qəbul olunmuş parlaq liderdir!**

**Bu gün İlham Əliyev Azərbaycan xalqının fəxri, güvənci və taleyini əminliklə etibar etdiyi əsl dövlət başçısıdır!**

**Bəxtiyar SADIQOV**

# Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminatında etibarlı tərəfdaşdır

## Bu, Prezident İlham Əliyevin Münxen görüşlərində bir daha təsdiqləndi

Əvvəli 1-ci səh.

Azərbaycan qazının Avropaya ixracı yeni mənbə, yeni marşrutdur. Bu, "Cənub qaz dəhlizi" layihəsinin böyük üstünlüyüdür və həmin səbəbdən də Avropa İttifaqı layihəyə güclü dəstək verir.

Bununla yanaşı, Azərbaycan həm də sabit neft təchizatçısı kimi qalmaqdadır. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri 14 ildir ahəngdar fəaliyyət göstərərək Azərbaycan neftini dünya bazarlarına nəql edir. Təsadüfi deyil ki, bir sıra ölkələrin, o cümlədən Avropa ölkələrinin neft istehlakının 40 faizini Azərbaycan nefti təşkil edir.

"Əsrin müqaviləsi"nin 2050-ci ilədək uzadılması hasilatın bundan sonra da sabit olacağını göstərir. Bundan əlavə, Azərbaycanda yeni neft yataqlarında kəşfiyyat işləri aparılır, ölkəmiz, necə deyərlər, neft bumunun növbəti mərhələsini yaşayır.

Sözügedən tədbirdə Prezident İlham Əliyev "OPEC+"un fəal üzvü olduğumuzu da xatırlatmışdır: "Onların görüşlərindən biri bizim dəvətimizlə Bakıda keçirilib. Həmçinin 2016-cı ildə Davosda "Neftin qiyməti ilə bağlı nə etmək olar" sualı veriləndə mən dedim, yaxşı olar ki, əsas qeyri-OPEC ölkələri və OPEC ölkələri bir araya gələrək razılaşsınlar. Mən şadam ki, bu, baş verdi. Düşünürəm ki, bu, davam etməlidir. Xüsusilə indi bu koronavirus vəziyyəti ilə bağlı, - cənab Birol çox maraqlı məlumat verdi, - neft istehsal edən ölkələrdə bütün çətinliklərə baxmayaraq, neftin qiymətinin nəyə görə aşağı olması və bundan da aşağı səviyyəyə düşə bilməsini nəzərə alaraq düşünürəm ki, "OPEC+" əməkdaşlığının davam etdirilməsi çox vacibdir. Çünki bu gün bizdə vəziyyət elədir ki, OPEC və qeyri-OPEC ölkələri bir təşkilatda fəaliyyət göstərir. Bizim bundan başqa belə təşkilatımız və əməkdaşlığımız yoxdur. Bəzən bir təşkilat daxilində razılığa gələ bilmirlər. Bizdə isə bu nadir format var və biz bunu əldən buraxmamalıyıq".

Azərbaycanın neft-qaz ehtiyatları nə qədər zəngin olsa da, bərpaolunan enerjiyə də böyük diqqət yetirir. 2030-cu ilə qədər elektrik enerjisinin 30 faizini bərpaolunan enerji hesabına ödəmək nəzərdə tutulur. Bu məqsədlə cari ilin əvvəlində külək və günəş enerjisi ilə işləyən 440 meqavatlıq stansiyaların tikintisi ilə bağlı sözügedən sahədə böyük təcrübəyə malik şirkətlər-



lə iki müqavilə imzalanıb. Nəzərdə tutulan işlər xarici sərmayələr hesabına görüləcək.

Məsələ ilə bağlı əlavə təkliflər də mövcuddur. Külək enerjisi stansiyalarından bir neçəsi Xəzər dənizində qurula bilər. Lakin bu işlər tədricən və ehtiyatla həyata keçirilməlidir. İş elə qurulmalıdır ki, hava küləkli və günəşli olmayanda elektrik enerjisinin təchizatında fasilə yaranmasın.

Münxen görüşlərində Azərbaycanın enerji sahəsində yaratdığı möhkəm əməkdaşlıq əlaqələri və tərəfdaşlıq platforması xüsusi vurğulanıb. Bunu Avropa İttifaqının büdcə və administrasiya məsələləri üzrə komissarı Yohannes Han da qeyd edib.

Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birol Azərbaycanın dünya enerji bazarında çox etibarlı tərəfdaş olduğunu bir daha nəzərə çatdırıb. O, eləcə də ölkəmizin alternativ enerji resurslarının inkişafı istiqamətində atdığı addımların önəmini vurğulayıb, Azərbaycanın "OPEC+" formatında təşəbbüslərini yüksək qiymətləndirib.

"OPEC+" çərçivəsində səmərəli əməkdaşlığı Küveyt Dövlətinin Baş Naziri Şeyx Sabah Xalid əl-Həməd əl-Sabah da diqqətə çatdırıb.

Dövlət başçısının Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevlə görüşündə Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi üzrə Konvensiyanın imzalanması son dövrün vacib hadisələrindən biri kimi dəyərləndirilib. Qeyd edilib ki, bu, Xəzərdə irimiqyaslı mahiyyətcə strateji əməkdaşlığın təməlini qoyur.

Ümumiyyətlə, Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən tədbirlər əməkdaşlığın, o cümlədən enerji təhlükəsizliyi sahəsində əməkdaşlığın daha da genişlənməsinə yeni təkan verəcək.

***Flora SADIQLI,*** 
***"Azərbaycan"***

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

**Qərar № 26/279**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 15 fevral 2020-ci il tarixli 194 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 56 saylı Xaçmaz kənd seçki dairəsi üzrə qeydə alınmış namizəd Hüseynov Zeyqəm Hüseyn oğlu 2020-ci il fevralın 15-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 14 fevral 2020-ci il tarixli 15/45 saylı qərarını mübahisələndirərək 7 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələrinin ləğv edilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələri və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"da nəzərdə tutulmuş müddətdə və qaydada verildiyindən Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Z.H.Hüseynov müraciətində bildirmişdir ki, 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 56 saylı Xaçmaz kənd seçki dairəsi üzrə nəticələrdən ümumilikdə razıdır, lakin 7 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri düzgün müəyyən edilməmiş, bu barədə dairə seçki komissiyasına etdiyi şikayət düzgün araşdırılmamışdır. Bu səbəbdən həmin seçki məntəqəsi üzrə səsvermənin nəticələri, dairə seçki komissiyasının 14 fevral 2020-ci il tarixli 15/45 saylı qərarı ləğv edilməli və pozuntuya yol vermiş şəxslər məsuliyyətə cəlb edilməlidir.

Namizəd Z.H.Hüseynovla əlaqə saxlanılmış, ona əlavə sənəd və ya material təqdim etmək, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, o, araşdırmaya əlavə olaraq bir ədəd videogörüntü təqdim edərək iclasda iştirak etməkdən imtina etmişdir.

Müəyyən edilmişdir ki, qeydə alınmış namizəd Z.H.Hüseynovun müraciəti dairə seçki komissiyası tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada hərtərəfli araşdırılmış, iddia olunan pozuntular təsdiqini tapmamışdır.

Araşdırma ilə əlaqədar mübahisələndirilən 7 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələrinə dair məntəqə seçki komissiyasının protokolu və digər sənədlər dairə seçki komissiyasından tələb edilərək götürülmüş və onlara baxış keçirilmişdir. Baxış nəticəsində seçki məntəqəsinin səsvermənin nəticələrinə dair protokolunda bu və ya digər formada seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular aşkar olunmamışdır. Bundan əlavə, səsvermə prosesində və səslərin hesablanmasında Seçki Məcəlləsinin tələblərinin pozulması halları müəyyən edilməmişdir.

Z.H.Hüseynovun şikayəti əsassız olduğundan təmin edilməməli, dairə seçki komissiyasının 14 fevral 2020-ci il tarixli 15/45 saylı Qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 56 saylı Xaçmaz kənd seçki dairəsi üzrə qeydə alınmış namizəd Hüseynov Zeyqəm Hüseyn oğlunun 15 fevral 2020-ci il tarixli 194 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 14 fevral 2020-ci il tarixli 15/45 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*18.02.2020*

**Qərar № 26/280**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 15 fevral 2020-ci il tarixli 204 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə müşahidəçi olmuş Əliyev İlkin Vüqar oğlu 2020-ci il fevralın 15-də Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək səsvermə günü 29 saylı Səbail seçki dairəsi üzrə bəzi seçki məntəqələrində qanun pozuntularının olduğunu iddia etmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilərək müraciətin aidiyyət qaydalarının pozulması ilə daxil olduğu müəyyən edilərək bu barədə müvafiq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4-cü hissəsinə əsasən **qərara alır:**

1. 29 saylı Səbail seçki dairəsi üzrə müşahidəçi Əliyev İlkin Vüqar oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 15 fevral 2020-ci il tarixli 204 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*18.02.2020*

**Qərar № 26/281**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 16 fevral 2020-ci il tarixli 230 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 88 saylı Göyçay seçki dairəsi üzrə qeydə alınmış namizəd Əhmədov Rəvan Aydın oğlu 2020-ci il fevralın 16-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü həmin seçki dairəsinin seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilərək rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvü müraciətin geri qaytarılması barədə rəy vermişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 4.1.2-ci yarımbəndinə əsasən, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilərlər.

Seçki Məcəlləsinin 112-1.14.1-ci maddəsinə və müvafiq Təlimatın 7.10.2-ci yarımbəndinə əsasən, şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4.1.2-ci və 7.10.2-ci yarımbəndlərinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 88 saylı Göyçay seçki dairəsi üzrə qeydə alınmış namizəd Əhmədov Rəvan Aydın oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 16 fevral 2020-ci il tarixli 230 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən ərizəçiyə geri göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*18.02.2020*

**Qərar № 26/282**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 16 fevral 2020-ci il tarixli 231 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 21 saylı Nəsimi birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Abbaslı Tural Feyruz oğlu 2020-ci il fevralın 16-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsinin bir sıra seçki məntəqələrində səsvermə günü qanun pozuntularına yol verildiyini iddia etmiş və bu pozuntuların araşdırılmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsinin) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilərək rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvü müraciətin geri qaytarılması barədə rəy vermişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 4.1.2-ci yarımbəndinə əsasən, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilərlər.

Seçki Məcəlləsinin 112-1.14.1-ci maddəsinə və müvafiq Təlimatın 7.10.2-ci yarımbəndinə əsasən, şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4.1.2-ci və 7.10.2-ci yarımbəndlərinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 21 saylı Nəsimi birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Abbaslı Tural Feyruz oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 16 fevral 2020-ci il tarixli 231 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən şikayət etmiş şəxsə geri göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*18.02.2020*

**Qərar № 26/283**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 13 fevral 2020-ci il tarixli 221 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 27 saylı Sabunçu ikinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Quliyev Telman Nüsrət oğlu 2020-ci il fevralın 15-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsinin bir neçə seçki məntəqəsində qanun pozuntularına yol verildiyini iddia etmiş, dairə seçki komissiyasının hərəkətsizliyini mübahisələndirmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqularının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Araşdırma prosesində namizəd Quliyev Telman Nüsrət oğlu 2020-ci il fevralın 18-də Mərkəzi Seçki Komissiyasına gəlmiş, ərizə ilə yazılı müraciət edərək müraciətindən imtina etdiyini bildirmişdir. Bu səbəbdən Quliyev Telman Nüsrət oğlunun 2020-ci il tarixli 221 saylı müraciətinə baxılmasına xitam verilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 27 saylı Sabunçu ikinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Quliyev Telman Nüsrət oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 15 fevral 2020-ci il tarixli 221 saylı müraciətinin araşdırılmasına xitam verilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*18.02.2020*

**Qərar № 26/284**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 15 fevral 2020-ci il tarixli 192 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 123 saylı Kəlbəcər seçki dairəsi üzrə qeydə alınmış namizəd Qənbərov Əziz Həbib oğlu 2020-ci il fevralın 15-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 14 fevral 2020-ci il tarixli 16/2 saylı qərarını mübahisələndirmiş, seçki dairəsinin əhatə etdiyi bəzi seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab olunmasını və seçki dairəsi üzrə seçkilərin nəticələrinin ləğv edilməsi barədə qərar qəbul olunmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Müraciət etmiş qeydə alınmış namizəd Ə.H.Qənbərov müraciətində səsvermə günü 123 saylı Kəlbəcər seçki dairəsinin əksər seçki məntəqələrində səsvermənin nəticələri haqqında protokolların tərtib edilməsi zamanı qanun pozuntularına yol verilməsini, adları seçici siyahılarında olmayan seçicilərin səs verməsini, bir şəxsin bir neçə dəfə səs verməsinə şərait yaradılmasını, seçki bülletenlərinin topa şəkildə seçki qutularına atılmasını iddia edərək dairə seçki komissiyasının 14 fevral 2020-ci il tarixli 16/2 saylı qərarının və səsvermənin nəticələrinin ləğv edilməsini xahiş etmişdir. Ərizəçi müraciətə mübahisələndirilən seçki məntəqələri (5, 9, 11, 14, 21, 27, 28, 29, 32, 33, 39, 41, 42, 43, 44, 51, 54 və 63 saylı) üzrə səsvermənin nəticələrinə dair elektron məlumat daşıyıcısı və bir sıra aktların kserosurətini əlavə etmişdir.

Yuxarıda qeyd olunanlarla əlaqədar namizəd Ə.H.Qənbərov 123 saylı Kəlbəcər seçki dairəsinin dairə seçki komissiyasına müraciət etmiş, şikayətlər komissiya tərəfindən araşdırılmış, həmin dairə seçki komissiyasının yuxarıda gostərilən müvafiq qərarı ilə müraciət əsassız hesab edilərək təmin olunmamışdır.

Araşdırma prosesində ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun araşdırma və Komissiyanın iclasında iştirakı təmin edilmişdir.

Həmçinin dairə seçki komissiyasının mübahisələndirilən qərarı və digər sənədlər araşdırma materiallarına əlavə edilmişdir.

123 saylı Kəlbəcər seçki dairəsinin dairə seçki komissiyası qərarını onunla əsaslandırmışdır ki, yuxarıda qeyd edilən seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları ilə bağlı iddialar öz təsdiqini tapmadığından, səsvermənin keçirilməsi və ya səsvermənin nəticələrinin hesablanması zamanı həmin seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları aşkar edilmədiyindən qeydə alınmış namizəd Ə.H.Qənbərovun müraciəti əsassız hesab edilərək təmin edilməməlidir.

Hazırkı araşdırmanın nəticəsi olaraq sosial şəbəkələrdə yayılan görüntülər, təqdim edilən fotoşəkillər və videomateriallar nəzərdən keçirilərkən səsvermə prosesində, səslərin hesablanmasında və səsvermənin nəticələrinə dair protokolların tərtib edilməsində bu və ya digər şəkildə seçkilərin nəticəsinə və seçicilərin iradəsinə təsir edə biləcək hallar müşahidə edilməmişdir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından mübahisələndirilən məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolları alınaraq onlara baxış keçirilmişdir. Baxış nəticəsində yalnız 16 saylı seçki məntəqəsinin səsvermənin nəticələrinə dair protokollarındakı məlumatlarda uyğunsuzluqlar aşkarlanmışdır. Müqayisəli araşdırma zamanı bu və ya digər formada seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular aşkar edilmişdir.

Göstərilən pozuntular seçki qanunvericiliyinin tələblərinə görə məntəqə seçki komissiyalarında səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün əsas yaratdığından 16 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün hüquqi əsaslar yaranmışdır. Nəticələri etibarsız hesab edilməli olan seçki məntəqələrinin sayı seçki dairəsi üzrə seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən azını təşkil edir.

Belə ki, səsvermənin nəticələri etibarsız hesab edilməli olan seçki məntəqəsinin sayı 1, seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayı 65-dir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 170.2-ci maddəsində göstərilir ki, dairə seçki komissiyası və ya Mərkəzi Seçki Komissiyası birmandatlı seçki dairəsi üzrə aşağıdakı hallarda seçkiləri etibarsız sayır:

- 170.2.1. səsvermə keçirilməsi və ya səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı seçki dairəsi üzrə yol verilən qanun pozuntuları seçicilərin iradəsini müəyyənləşdirməyə imkan vermədikdə;
- 170.2.2. birmandatlı seçki dairəsi üzrə səsvermə zamanı səsvermənin nəticələri etibarsız sayılmış seçki məntəqələrinin sayı həmin seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən çoxunu təşkil etdikdə və ya ləğv edildikdə, o şərtlə ki, həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı seçki dairəsi üzrə qeydə alınmış seçicilərin ümumi sayının 1/4-dən çoxunu təşkil etsin.

Araşdırma zamanı adıçəkilən məntəqə seçki komissiyalarının üzvlərindən, müxtəlif siyasi partiyaları təmsil edən və digər müşahidəçilərdən müvafiq izahatlar alınaraq nəzərdən keçirilmişdir. Müəyyən edilmişdir ki, qeydə alınmış namizəd Ə.H.Qənbərovun müraciətdə mübahisələndirdiyi qanun pozuntuları öz təsdiqini tapmamış və dairə seçki komissiyası düzgün hüquqi nəticəyə gəlmişdir.

Göstərilənlərə əsasən müraciətin qismən təmin olunması, seçki dairəsinin 16 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi və 123 saylı Kəlbəcər seçki dairəsi dairə seçki komissiyasının 14 fevral 2020-ci il tarixli 16/2 saylı qərarının dəyişdirilmədən saxlanılması üçün hüquqi əsaslar yaranmışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 123 saylı Kəlbəcər seçki dairəsi üzrə qeydə alınmış namizəd Qənbərov Əziz Həbib oğlunun müraciəti qismən təmin olunsun, həmin seçki dairəsinin 16 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.
2. 123 saylı Kəlbəcər seçki dairəsi dairə seçki komissiyasının 14 fevral 2020-ci il tarixli 16/2 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*18.02.2020*

**Qərar № 26/285**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 15 fevral 2020-ci il tarixli 197, 198 və 228 saylı müraciətlərə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 79 saylı İmişli seçki dairəsi üzrə qeydə alınmış namizədlər Hüseynli İlqar Qəşəm oğlu, Əkbərli İltizam Nizam oğlu və Fərzəliyev Murad Qoçu oğlu 15 fevral 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 13 fevral 2020-ci il tarixli 31/74 saylı qərarını mübahisələndirərək müvafiq qərarın ləğv edilməsini, seçki dairəsinin əhatə etdiyi bəzi seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız sayılmasını və seçki dairəsi üzrə seçkilərin nəticələrinin ləğv edilməsi barədə qərar qəbul olunmasını xahiş etmişlər.

Daxil olmuş müraciətlər eyni məzmunlu olduğundan və eyni bir seçki dairəsi dairə seçki komissiyasının qərarından verildiyindən bir icraatda birləşdirilmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvləri tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə birgə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Müraciət etmiş deputatlığa qeydə alınmış namizədlər səsvermə günü 79 saylı İmişli seçki dairəsinin bəzi seçki məntəqələrində müşahidəçilərə müşahidənin aparılmasına şərait yaradılmadığını, səsvermədə iştirak edən seçicilərin sayının az olmasına baxmayaraq, məntəqə seçki komissiyaları tərəfindən lider namizədin xeyrinə səslərin süni şəkildə artırıldığını, onlara verilən səslərin azaldıldığını, müşahidəçilərə səsvermənin yekununa dair protokolun surətinin verilmədiyini və digər qanun pozuntularının baş verdiyini iddia edərək İ.Q.Hüseynli 6, 7, 8, 14, 19, 20, 21, 23, 25, 26, 28, 38 və 41 saylı seçki məntəqələrində, İ.N.Əkbərli seçki dairəsinə daxil olan bütün seçki məntəqələrində, M.Q.Fərzəliyev isə 19, 20, 21, 26, 37 və 40 saylı seçki məntəqələrində səsvermənin nəticələrinin etibarsız sayılmasını tələb etmişlər. Ərizəçilər müraciətə mübahisələndirilən seçki məntəqələri üzrə səsvermənin nəticələrinə dair elektron məlumat daşıyıcısı və bir sıra aktlar əlavə etmişlər.

Yuxarıda qeyd olunanlarla əlaqədar qeydə alınmış namizədlər İ.Q.Hüseynli, İ.N.Əkbərli və M.Q.Fərzəliyev qanunla nəzərdə tutulmuş müddətdə 79 saylı İmişli seçki dairəsinin dairə seçki komissiyasına müraciət etmiş, komissiya tərəfindən şikayətləri araşdırılmış, həmin dairə seçki komissiyasının yuxarıda göstərilən qərarı ilə onların müraciətləri əsassız hesab edilərək təmin olunmamışdır.

79 saylı İmişli seçki dairəsinin dairə seçki komissiyası qərarını onunla əsaslandırmışdır ki, yuxarıda qeyd edilən seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları ilə bağlı iddia olunanlar öz təsdiqini tapmadığından və səsvermənin keçirilməsi və ya səsvermənin nəticələrinin hesablanması zamanı həmin seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları müəyyən edilmədiyindən qeydə alınmış namizədlər İ.Q.Hüseynli, İ.N.Əkbərli və M.Q.Fərzəliyevin müraciətləri əsassız hesab edilərək təmin edilməmişdir.

Qeydə alınmış namizədlərin araşdırmada və Mərkəzi Seçki Komissiyasının iclasında iştirakı təmin edilmişdir.

Araşdırmanın tamlığı, hərtərəfliliyi və obyektivliyi prinsipi əsas götürülərək səsvermə günü həmin seçki dairəsi ilə bağlı sosial şəbəkələrdə olan məlumatlar, seçki komissiyalarının seçkilərin yekununa dair protokol məlumatları və şikayətçilər tərəfindən araşdırmaya təqdim olunmuş sənədlər və videomateriallar araşdırmaya cəlb olunmuş, həmçinin dairə seçki komissiyasının mübahisələndirilən qərarı və digər sənədlər araşdırma materiallarına əlavə edilmişdir.

Araşdırma zamanı qeydə alınmış digər namizədlərdən, müxtəlif siyasi partiyaları təmsil edən digər müşahidəçilərdən və adıçəkilən məntəqə seçki komissiyalarının üzvlərindən alınmış izahatlarla müəyyən edilmişdir ki, səsvermə günü mübahisələndirilən seçki məntəqələrinin əksəriyyətində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış, seçicilər sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmiş, məntəqə seçki komissiyasının səsvermənin nəticələrinə dair yekun protokolu Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuş, maraqlı seçki subyektlərinə verilmiş və bu baxımdan dairə seçki komissiyası düzgün nəticəyə gəlsə də, aşağıdakı bir neçə seçki məntəqəsi üzrə dairə seçki komissiyasının gəldiyi nəticə düzgün hesab edilməməlidir.

Araşdırmanın nəticəsi olaraq sosial şəbəkələrdə yayılan görüntülər və videomateriallar nəzərdən keçirilərkən 14 və 23 saylı seçki məntəqələrində səsvermə prosesində bu və ya digər şəkildə seçkilərin nəticəsinə təsir edə biləcək pozuntular müəyyən edilmişdir ki, bunlar da seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən hallardır.

Araşdırma ilə əlaqədar İ.Q.Hüseynli və İ.N.Əkbərli tərəfindən təqdim olunmuş protokollar və dairə seçki komissiyasından mübahisələndirilən məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolları alınaraq onlara baxış keçirilmişdir. Müqayisəli araşdırma nəticəsində yalnız 16 və 25 saylı seçki məntəqələrinin səsvermənin nəticələrinə dair protokollarında, həmçinin təqdim olunmuş materialların araşdırılması nəticəsində 21 saylı seçki məntəqəsində bu və ya digər formada seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular müəyyən edilmişdir.

Göstərilən pozuntular seçki qanunvericiliyinin tələblərinə görə məntəqə seçki komissiyalarında səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün əsas olduğundan 14, 16, 21, 23 və 25 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün hüquqi əsaslar yaranmışdır. Nəticələri etibarsız hesab edilməli olan seçki məntəqələrinin sayı seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən azını təşkil edir. Həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı seçki dairəsi üzrə qeydə alınmış seçicilərin ümumi sayının 1/4-dən azını təşkil edir.

Belə ki, səsvermənin nəticələri etibarsız hesab edilməli olan seçki məntəqələrinin sayı 5, seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayı 43-dür.

Seçki Məcəlləsinin 170.2-ci maddəsində göstərilir ki, dairə seçki komissiyası və ya Mərkəzi Seçki Komissiyası birmandatlı seçki dairəsi üzrə aşağıdakı hallarda seçkiləri etibarsız sayır:

- 170.2.1. səsvermə keçirilməsi və ya səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı seçki dairəsi üzrə yol verilən qanun pozuntuları seçicilərin iradəsini müəyyənləşdirməyə imkan vermədikdə;
- 170.2.2. birmandatlı seçki dairəsi üzrə səsvermə zamanı səsvermənin nəticələri etibarsız sayılmış seçki məntəqələrinin sayı həmin seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən çoxunu təşkil etdikdə və ya ləğv edildikdə, o şərtlə ki, həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı seçki dairəsi üzrə qeydə alınmış seçicilərin ümumi sayının 1/4-dən çoxunu təşkil etsin.

Göstərilənlərə əsasən müraciətin qismən təmin edilməsi, dairə seçki komissiyasının qərarının həmin seçki məntəqələrinə aid hissədə ləğv edilməsi, seçki dairəsinin 14, 16, 21, 23 və 25 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün hüquqi əsaslar yaranmışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 79 saylı İmişli seçki dairəsi üzrə qeydə alınmış namizədlər Hüseynli İlqar Qəşəm oğlu, Əkbərli İltizam Nizam oğlu və Fərzəliyev Murad Qoçu oğlunun 15 fevral 2020-ci il tarixli 197, 198 və 228 saylı müraciətləri qismən təmin edilsin.
2. 79 saylı İmişli seçki dairəsinin 14, 16, 21, 23 və 25 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin, həmin dairə seçki komissiyasının 13 fevral 2020-ci il tarixli 31/74 saylı qərarı 14, 16, 21, 23 və 25 saylı seçki məntəqələrinə aid hissədə ləğv edilsin, qərar digər hissədə dəyişdirilmədən saxlanılsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*18.02.2020*

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

**Qərar № 26/286**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 15 fevral 2020-ci il tarixli 206 saylı müraciətlərə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 114 saylı Şəki kənd birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Balayev İbrahimxəlil Nəriman oğlu 2020-ci il fevralın 15-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək dairə seçki komissiyasının hərəkətsizliyini mübahisələndirmiş və pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsinin) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Araşdırma ilə əlaqədar qeydə alınmış namizədlə əlaqə saxlanılmış, onun həm araşdırmada, həm də Mərkəzi Seçki Komissiyasının iclasında iştirak etmək və digər hüquqları izah edilmişdir.

Qeydə alınmış namizəd şikayətini onunla əsaslandırmışdır ki, 2020-ci il fevralın 12-də onun səlahiyyətli nümayəndəsi Mustafayev Məmməd Abdulla oğlu və vəkil edilmiş şəxsi Rəsulov Nazim Rəsul oğlu səsvermə günü baş verən qanun pozuntuları ilə əlaqədar tərtib etdikləri aktları 114 saylı Şəki kənd birinci seçki dairəsi dairə seçki komissiyasının sədri Məharət İsfəndiyar oğlu Məmmədova təqdim edərək dairə üzrə səsvermənin nəticələrinin ləğv olunmasını tələb etmişlər. Fevralın 15-də rəsmi cavab üçün müraciət etdikdə M.İ.Məmmədov ona hər hansı bir sənədin təqdim olunmadığını bildirmişdir.

Araşdırma zamanı o, sənədlərin dairə seçki komissiyasının sədrinə təqdim edildiyini təsdiq edən hər hansı bir arayış, qəbz və s. təqdim edə bilmədi. Sənədlərin verilməsini təsdiq edən fakt kimi səs yazısının olduğunu bildirərək onu araşdırmaya təqdim etdi. Həmin səs yazısı dinlənilərkən məlum oldu ki, o, keyfiyyətsiz və xırıltılı olduğundan ayrı-ayrı ifadələr eşidilsə də iddia edilən faktın müəyyən edilməsi mümkün deyildir.

114 saylı Şəki kənd birinci seçki dairəsi dairə seçki komissiyasının sədri M.İ.Məmmədov izahatında həqiqətən də qeydə alınmış namizəd İ.N.Balayevin səlahiyyətli nümayəndəsi M.A. Mustafayev və vəkil edilmiş şəxsi N.R.Rəsulovun fevralın 12-də dairə seçki komissiyasına gəldiklərini təsdiq edərək onların seçki prosesi ilə bağlı fikir mübadiləsi apardıqlarını, bəzi aktların surətlərini göstərdiklərini, sonda isə təmsil etdikləri namizədin neçə səs topladığını soruşaraq hər hansı bir ərizə, müraciət və ya sənəd təqdim etmədən getdiklərini, həmçinin həmin şəxslərdən heç bir ərizə və ya sənəd qəbul etmədiyini və bunun qarşılığında onlara arayış və ya qəbz vermədiyini göstərmişdir.

Beləliklə, aparılmış araşdırma ilə müəyyən edilmişdir ki, qeydə alınmış namizəd İ.N.Balayevin müraciəti əsassız olduğundan təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 114 saylı Şəki kənd birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Balayev İbrahimxəlil Nəriman oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 15 fevral 2020-ci il tarixli 206 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*18.02.2020*

**Qərar № 26/287**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 15 və 16 fevral 2020-ci il tarixli 202 və 229 saylı müraciətlərə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 32 saylı Suraxanı üçüncü seçki dairəsi üzrə qeydə alınmış namizədlər Cəfərli Fikrət Novruz oğlu və Rəcəbov Vəlican Etibar oğlu 2020-ci il fevralın 15-də və 16-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 14 fevral 2020-ci il tarixli 25/82 saylı qərarını mübahisələndirərək, seçki dairəsinin əhatə etdiyi bəzi seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsini və seçki dairəsi üzrə seçkilərin nəticələrinin ləğvi barədə qərar qəbul olunmasını xahiş etmişlər.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Müraciət etmiş deputatlığa qeydə alınmış namizədlər müraciətlərində səsvermə günü 32 saylı Suraxanı üçüncü seçki dairəsinin 1, 2, 3, 4, 5, 6, 7, 8, 9, 10, 11, 12, 13, 14, 15, 16, 17, 18, 19, 20, 21, 22, 23, 24, 25, 26, 27, 28, 29, 30 və 31 saylı seçki məntəqələrində səsvermənin nəticələri haqqında protokolların tərtib edilməsi zamanı qanun pozuntularına yol verilməsini bildirmiş, adı seçici siyahısında olmayan şəxslərin səs verməsi, eyni şəxsin bir neçə dəfə səs verməsinə şərait yaradılması, bir şəxsin bir neçə seçki məntəqəsində səs verdiyini iddia edərək həmin seçki məntəqələri üzrə səsvermənin nəticələrinin ləğv edilməsini tələb etmişdir. Ərizəçilər tərəfindən müraciətdə aktlar, fotoşəkillər və videogörüntülər əlavə olunmuşdur.

Namizədlərin araşdırmada və Mərkəzi Seçki Komissiyasının iclasında iştirakı təmin edilmişdir.

Araşdırma ilə əlaqədar sosial şəbəkələrdə yayılan görüntülər, təqdim edilən fotoşəkillər və videomateriallar nəzərdən keçirilərkən səsvermə prosesində, səslərin hesablanmasında və səsvermənin nəticələrinə dair protokolların tərtib edilməsində bu və ya digər şəkildə seçkilərin nəticəsinə təsir edə biləcək hallar yalnız 8 və 9 saylı seçki mənqələrində müşahidə edilmişdir ki, bu da seçicilərin iradəsini müəyyən etməyə imkan verməyən pozuntu kimi qiymətləndirilməlidir.

Təqdim edilən aktlar üzrə araşdırma aparılmış və həmin aktlarda qanun pozuntularının olduğu iddia edilən seçki məntəqələri üzrə səsvermə günü müxtəlif maraqları təmsil etməklə həmin məntəqələrdə müşahidə aparmış çoxsaylı müşahidəçilər tərəfindən tərtib edilmiş aktlar və izahatlarla şikayətçinin göstərdiyi seçki məntəqələrində iddia edilən pozuntuların baş vermədiyi, səsvermənin və səsvermənin nəticələrinə dair protokolların tərtib edilməsində seçki qanunvericiliyinin tələblərinə riayət olunduğu, protokolların seçki məntəqələrində tərtib edildiyi və surətlərinin maraqlı seçki subyektlərinə verildiyi öz əksini tapmışdır.

Dairə seçki komissiyasından mübahisələndirilən məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolları alınaraq baxış keçirilmişdir. Baxış nəticəsində yalnız 4 saylı seçki məntəqəsinin səsvermənin nəticələrinə dair protokolunda bu və ya digər formada seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular müəyyən edilmişdir.

Göstərilən pozuntular seçki qanunvericiliyinin tələblərinə görə məntəqə seçki komissiyalarında səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün əsas yaratdığından 4, 8 və 9 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün hüquqi əsaslar yaranmışdır. Nəticələri etibarsız hesab edilməli olan seçki məntəqələrinin sayı seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən azını təşkil edir.

Belə ki, səsvermənin nəticələri etibarsız hesab edilməli olan seçki məntəqələrinin sayı 3, seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayı 31-dir.

Seçki Məcəlləsinin 170.2-ci maddəsində göstərilir ki, dairə seçki komissiyası və ya Mərkəzi Seçki Komissiyası birmandatlı seçki dairəsi üzrə aşağıdakı hallarda seçkiləri etibarsız sayır:

- 170.2.1. səsvermə keçirilməsi və ya səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı seçki dairəsi üzrə yol verilən qanun pozuntuları seçicilərin iradəsini müəyyənləşdirməyə imkan vermədikdə;
- 170.2.2. birmandatlı seçki dairəsi üzrə səsvermə zamanı səsvermənin nəticələri etibarsız sayılmış seçki məntəqələrinin sayı həmin seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən çoxunu təşkil etdikdə və ya ləğv edildikdə, o şərtlə ki, həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı seçki dairəsi üzrə qeydə alınmış seçicilərin ümumi sayının 1/4-dən çoxunu təşkil etsin.

Beləliklə, Cəfərli Fikrət Novruz oğlu və Rəcəbov Vəlican Etibar oğlunun müraciəti qismən təmin edilməli, 4, 8 və 9 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab olunmalı, dairə seçki komissiyasının 14 fevral 2020-ci il tarixli 25/82 saylı qərarı 4, 8 və 9 saylı seçki məntəqələri üzrə hissədə ləğv edilməli, qalan hissədə isə dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 32 saylı Suraxanı üçüncü seçki dairəsi üzrə qeydə alınmış namizədlər Cəfərli Fikrət Novruz oğlu və Rəcəbov Vəlican Etibar oğlunun 15 və 16 fevral 2020-ci il tarixli 202 və 229 saylı müraciətləri qismən təmin edilsin, 4, 8 və 9 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.
2. Dairə seçki komissiyasının 14 fevral 2020-ci il tarixli 25/82 saylı qərarı 4, 8 və 9 saylı seçki məntəqələri üzrə hissədə ləğv edilsin, digər hissədə isə dəyişdirilmədən saxlanılsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*18.02.2020*

**Qərar № 26/288**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 15 fevral 2020-ci il tarixli 193 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 11 saylı Qaradağ seçki dairəsi üzrə qeydə alınmış namizəd Paşayev Kamil Əşrəf oğlu 2020-ci il fevralın 15-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının hərəkətsizliyini mübahisələndirərək pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsinin) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Araşdırma ilə əlaqədar qeydə alınmış namizədlə əlaqə saxlanılmış, onun həm araşdırmada, həm də Komissiyanın iclasında iştirak etmək və digər hüquqları izah edilmişdir.

Qeydə alınmış namizəd şikayətini onunla əsaslandırır ki, səsvermə günü adıçəkilən seçki dairəsinin bəzi seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia edərək pozuntuları araşdıraraq tədbir görülməsi üçün 11 fevral 2020-ci ildə dairə seçki komissiyasına rəsmi ərizə ilə müraciət etsə də, hələ də müraciətinə baxılmasının nəticəsi barədə ona məlumat verilməmişdir. Elə bu səbəbdən də o, 15 fevral 2020-ci ildə dairə seçki komissiyasının hərəkətsizliyindən Mərkəzi Seçki Komissiyasına şikayət etmişdir.

Araşdırma ilə müəyyən edilmişdir ki, K.Ə.Paşayevin həmin müraciətinə dairə seçki komissiyası tərəfindən 2020-ci il fevralın 13-də baxılmış, qərarın surəti isə həmin gün poçt vasitəsilə (bu hal müvafiq poçt sənədi ilə təsdiq edilir ) ərizəçiyə göndərilmişdir.

Beləliklə, K.Ə.Paşayevin müraciəti əsassız olduğundan təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci,112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 11 saylı Qaradağ seçki dairəsi üzrə qeydə alınmış namizəd Paşayev Kamil Əşrəf oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 15 fevral 2020-ci il tarixli 193 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*18.02.2020*

**Qərar № 26/289**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 16 fevral 2020-ci il tarixli 236 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 78 saylı Lerik seçki dairəsi üzrə qeydə alınmış namizəd Qafarov Vasif Vaqif oğlu və digərləri 2020-ci il fevralın 16-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsinin bir sıra seçki məntəqələrində səsvermə günü qanun pozuntularına yol verildiyini iddia etmiş və bu pozuntuların araşdırılmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsinin) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilərək rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvü müraciətin geri qaytarılması barədə rəy vermişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 4.1.2-ci yarımbəndinə əsasən, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Seçki Məcəlləsinin 112-1. 14.1-ci maddəsinə və müvafiq Təlimatın 7.10.2-ci yarımbəndinə əsasən, şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4.1.2-ci və 7.10.2-ci yarımbəndlərinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 78 saylı Lerik seçki dairəsi üzrə qeydə alınmış namizəd Qafarov Vasif Vaqif oğlu və digərlərinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 16 fevral 2020-ci il tarixli 236 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən şikayət etmiş şəxsə geri göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*18.02.2020*

**Qərar № 26/290**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 16 fevral 2020-ci il tarixli 227 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 6 saylı Culfa - Babək seçki dairəsi üzrə namizədliyi Vahid Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş və qeydə alınmış Aslanov Mətləb Məhərrəm oğlu 2020-ci il fevralın 16-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsinin bir sıra seçki məntəqələrində səsvermə günü qanun pozuntularına yol verildiyini iddia etmiş və bu pozuntuların araşdırılmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsinin) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilərək rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvü müraciətin geri qaytarılması barədə rəy vermişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 4.1.2-ci yarımbəndinə əsasən, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Seçki Məcəlləsinin 112-1. 14.1-ci maddəsinə və müvafiq Təlimatın 7.10.2-ci yarımbəndinə əsasən, şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4.1.2-ci və 7.10.2-ci yarımbəndlərinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 6 saylı Culfa - Babək seçki dairəsi üzrə namizədliyi Vahid Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş və qeydə alınmış Aslanov Mətləb Məhərrəm oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 16 fevral 2020-ci il tarixli 227 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən şikayət etmiş şəxsə geri göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*18.02.2020*

**Qərar № 26/291**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 17 fevral 2020-ci il tarixli 245 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 108 saylı Ağstafa seçki dairəsi üzrə namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş və qeydə alınmış Abbaslı Başxanım Şamil qızı 2020-ci il fevralın 17-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü həmin seçki dairəsinin seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, müraciətin aidiyyət qaydalarının pozulması ilə daxil olmasına dair rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4-cü hissəsinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 108 saylı Ağstafa seçki dairəsi üzrə namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş və qeydə alınmış Abbaslı Başxanım Şamil qızının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 17 fevral 2020-ci il tarixli 245 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*18.02.2020*

**Qərar № 26/292**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 15 fevral 2020-ci il tarixli 199 saylı, 15 fevral 2020-ci il tarixli 200 saylı və 16 fevral 2020-ci il tarixli 235 saylı müraciətlərə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 9 saylı Binəqədi ikinci seçki dairəsi üzrə qeydə alınmış namizədlər Səfərova Günel Məhərrəm qızı, Musayev Elşad Nəbi oğlu və Qasımov Elnur Rafiq oğlu 2020-ci il fevralın 15-də, Rzayev Rəşad Rafiq oğlu 2020-ci il fevralın 16-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsinin bir sıra seçki məntəqələrində səsvermə günü baş vermiş qanun pozuntularının araşdırılmasına dair dairə seçki komissiyasının 13 fevral 2020-ci il tarixli 19/2 və 19/3 saylı, 14 fevral 2020-ci il tarixli 20/3 saylı qərarlarını mübahisələndirmiş, müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişlər.

Müraciətlər eyni məzmunlu olduğundan və 9 saylı Binəqədi seçki dairəsinin eyni seçki məntəqələrini əhatə etdiyindən bir icraatda birləşdirilmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvləri tərəfindən araşdırılaraq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Namizədlər G.M.Səfərova, E.N.Musayev, R.R.Rzayev və E.R.Qasımov müraciətlərində bildirmişlər ki, 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 1, 2, 4, 5, 6, 8, 9, 12, 13, 14, 15, 21, 23, 24, 25, 26, 27, 28, 29, 31, 33, 35 və 37 saylı seçki məntəqələrində səsvermədə iştirak edən seçicilərin sayının az olmasına baxmayaraq, məntəqə seçki komissiyaları tərəfindən bu say süni şəkildə artırılmış, müşahidəçilərə müşahidənin aparılmasına şərait yaradılmamış və digər qanun pozuntularına yol verilmişdir.

Yuxarıda qeyd olunanlarla əlaqədar namizədlər G.M.Səfərova və digərləri 9 saylı Binəqədi ikinci seçki dairəsi dairə seçki komissiyasına müraciət etmiş, komissiya tərəfindən şikayətlər araşdırılmış, həmin dairə seçki komissiyasının yuxarıda gostərilən müvafiq qərarları ilə müraciətlər əsassız hesab edilərək təmin olunmamışdır.

Araşdırma prosesində ərizəçilərlə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onların Komissiyanın iclasında iştirakı təmin edilmişdir.

Dairə seçki komissiyasının mübahisələndirilən qərarları və digər sənədlər araşdırma materiallarına əlavə edilmişdir.

9 saylı Binəqədi ikinci seçki dairəsinin dairə seçki komissiyası qeyd edilən qərarlarını onunla əsaslandırmışdır ki, araşdırma ilə seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları təsdiqini tapmadığından və səsvermənin keçirilməsi və ya səsvermənin nəticələrinin hesablanması zamanı həmin seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları müəyyən olunmadığından qeydə alınmış namizədlər G.M.Səfərova və digərlərinin müraciətləri əsassız olduğundan təmin edilməməlidir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, səsvermə günü seçki dairəsinin 1, 2, 4, 5, 6, 8, 9, 12, 13, 14, 15, 21, 23, 24, 25, 26, 27, 28, 29, 33 və 37 saylı seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış, seçicilər sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmiş, məntəqə seçki komissiyasının səsvermənin nəticələrinə dair protokolu Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuş və bu baxımdan dairə seçki komissiyası düzgün nəticəyə gəlmişdir.

Belə ki, seçki dairəsinin 31 və 35 saylı seçki məntəqələri istisna olmaqla digər seçki məntəqələrində səsvermə günü baş verməsi iddia edilən qanun pozuntuları öz təsdiqini tapmamış və bu hal səslərin sayılmasını müşahidə etmiş müşahidəçilər A.İ.Quliyeva, F.Ə.Kərimov, M.B.Quliyeva, M.E.Verdiyev, S.Ə.Yusifova, M.N.Babayeva, Z.O.İsmayılova, Q.M.Sultanova, A.Ə.Səfərova, D.İ.Abbasov, Ş.Təhməzov, M.L.Əliyeva, Ə.A.Baxşıyev, H.R.Süleymanova, A.Q.Abdullayeva, K.S.Quliyeva, R.B.Rzayeva, A.C.Qədirov, T.B.Yusubov, İ.E.Əmirova, O.Y.Niftullayev, A.R.İsmayılov, R.Ə.Mənsuri, K.Ə.Ələkbərova, E.A.İsmayılov, E.E.Bağırov, V.X.Rəhimov, S.C.Əliyeva, E.R.Əliyev, S.A.Aydınova, E.Abbasov, G.Abdullayeva, B.İbrahimov, İ.Abdurəhmanov, R.Ə.İbayev, A.M.Qarayev, A.H.Məmmədova, E.M.Məcidov, G.B.Məmmədova, S.H.Atayeva, S.T.Qasımov, R.G.İsgəndərova, L.M.Xubanova, M.M.Abbasov, G.Y.Mehdizadə, A.R.Əhmədova, F.R.Həsənli, A.A.İsmayılov, B.R.Muradlı, A.F.Qasımov, F.X.Xudaverdiyev, H.Ə.Babyev, N.A.Məmmədova, Ü.V.Yusubova, A.S.Cabbarlı, S.İ.Cəfərov, E.A.Məmmədov, S.C.Quliyev, M.Ə.Qayılova, F.Ç.Qulamov, Z.V.Məmmədov, R.M.Əhmədov, N.E.Məhərrəmova, R.İ.Həsənzadə, İ.B.Şirəliyev, S.Ə.Tağıyeva, T.V.Zeynalov, A.İ.İsayeva, X.Ə.Allahyarova, A.E.Şirinova, A.Ə.Abbasov, C.V.Ağayev, A.R.Abbasov, L.B.Kərimov, İ.R.İbadov, C.B.Qurbanov, Q.Z.Məmmədov, F.Ə.Babayev, X.Ə.Kərimzadə, N.Q.Həsənzadə, İ.F.Ağayev, Ş.Ə.Niyazov, E.R.Qurbanova, S.V.Məmmədov, A.V.Qasımov, B.N.Gözəlov, S.M.Ağayeva və K.S.Quliyevanın, 1 saylı məntəqə seçki komissiyasının sədri S.S.Hüseynov, 2 saylı məntəqə seçki komissiyasının sədri A.İ.Quliyeva, 4 saylı məntəqə seçki komissiyasının sədri V.Məmmədova, komissiyanın üzvü M.B.Quliyeva, 5 saylı məntəqə seçki komissiyasının sədri G.İ.Məmmədova, komissiyanın katibi N.A.Məmmədova, 6 saylı məntəqə seçki komissiyasının sədri Z.Əliyeva, komissiyanın üzvü T.V.Vəliyeva, 8 saylı məntəqə seçki komissiyasının katibi R.F.Məmmədov, 9 saylı məntəqə seçki komissiyasının sədri E.H.Həşimov, komissiyanın katibi N.S.Əliyeva, 12 saylı məntəqə seçki komissiyasının üzvləri A.M.Babayeva və B.T.Yaqubova, 13 saylı məntəqə seçki komissiyasının sədri Z.S.Babayeva, komissiyanın katibi T.L.Vəliyeva, 14 saylı məntəqə seçki komissiyasının sədri M.N.Babayev, komissiyanın katibi N.R.Abasov, 15 saylı məntəqə seçki komissiyasının sədri S.Ş.Məmmədov, 21 saylı məntəqə seçki komissiyasının sədri İ.M.Əliyeva, 23 saylı məntəqə seçki komissiyasının sədri Ə.Y.Kərimov, 24 saylı məntəqə seçki komissiyasının sədri S.R.Həsənov, komissiyanın katibi T.F.Əliyev, 24 saylı məntəqə seçki komissiyasının sədri M.Y.Nəsrullayeva, komissiyanın katibi Ş.Ə.Cəfərbəyova, 26 saylı məntəqə seçki komissiyasının sədri Ş.Təhməzova, komissiyanın katibi D.Abbasov, 27 saylı məntəqə seçki komissiyasının sədri F.R.Albabayev, 28 saylı məntəqə seçki komissiyasının sədri L.M.Mikayılova, 29 saylı məntəqə seçki komissiyasının sədri Q.M.Sultanova, komissiyanın katibi A.Ə.Səfərova, 33 saylı məntəqə seçki komissiyasının sədri S.Ə.Yusifova və komissiyanın katibi F.Kərimovun verdikləri izahatlarla, həmçinin tərtib edilmiş aktlarla təsdiq olunur.

Həmçinin verilmiş izahatlar və əlavə edilmiş sənədlərdən görünür ki, səsvermə günü bir çox seçki məntəqələrində müvafiq müşahidəçilər tərəfindən seçki qanunvericiliyinin tələbləri pozulmaqla müşahidə aparılmış, Seçki Məcəlləsinin 41-ci maddəsi ilə müəyyən edilmiş müşahidənin aparılması prinsiplərinə əməl olunmamışdır.

Sosial şəbəkələr vasitəsilə paylaşılan və şikayətçilərin araşdırmaya təqdim etdikləri videogörüntülər araşdırılarkən müəyyən edilmişdir ki, 31 və 35 saylı seçki məntəqələri üzrə seçki qanunvericiliyinin tələblərinin pozulması halı təsdiqini tapmış, beləliklə də 9 saylı Binəqədi ikinci seçki dairəsinin həmin seçki məntəqələri üzrə göstərilən hallar öz təsdiqini tapdığından şikayətlərin qismən təmin olunması üçün hüquqi əsaslar yaranmışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 9 saylı Binəqədi ikinci seçki dairəsi üzrə qeydə alınmış namizədlər Səfərova Günel Məhərrəm qızı və digərlərinin müraciətləri qismən təmin olunsun, həmin seçki dairəsinin 31 və 35 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız sayılsın.
2. 9 saylı Binəqədi ikinci seçki dairəsi dairə seçki komissiyasının 13 fevral 2020-ci il tarixli 19/2 və 19/3 saylı, 14 fevral 2020-ci il tarixli 20/3 saylı qərarları 31 və 35 saylı seçki məntəqələri üzrə hissədə ləğv edilsin, digər hissələrdə dəyişdirilmədən saxlanılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*18.02.2020*

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

**Qərar № 26/293**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 14 fevral 2020-ci il tarixli 196 saylı müraciətlərə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 29 saylı Səbail seçki dairəsi üzrə qeydə alınmış namizəd Haciyev Bəxtiyar İlyas oğlu 2020-ci il fevralın 15-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət etmiş, fevralın 16-da isə həmin şikayətə əlavə olaraq 29 saylı Səbail seçki dairəsi dairə seçki komissiyasının (dairə seçki komissiyası) 15 fevral 2020-ci il tarixli 14/52 saylı qərarını mübahisələndirmiş və seçki dairəsi üzrə seçkilərin nəticələrinin ləğv olunması barədə qərar qəbul edilməsini xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

B.İ.Hacıyev müraciətində göstərmişdir ki, araşdırmada iştirak etmək istədiyini bildirsə də dairə seçki komissiyası tərəfindən onun araşdırma və iclasda iştirakı təmin edilməmişdir. Müraciətində səsvermə günü 29 saylı Səbail seçki dairəsinin 1, 2, 4, 5, 7, 9, 11, 13, 15, 17, 18, 22, 23, 25, 28 və 29 saylı seçki məntəqələrindən əldə etdiyi səsvermənin nəticələri haqqında protokolların surətləri ilə Mərkəzi Seçki Komissiyasına təqdim edilən protokollar arasında uyğunsuzluq olduğunu, həmin seçki məntəqələrinin bəzilərində pozuntuları təsdiq edən videogörüntülərin olduğunu iddia edərək seçki dairəsinin 22 seçki məntəqəsi üzrə yol verilmiş pozuntuları nəzərə alaraq seçki dairəsi üzrə seçkilərin nəticələrinin etibarsız hesab olunmasını xahiş etmişdir.

Araşdırma ilə əlaqədar şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun araşdırma və Komissiyanın iclasında iştirakı təmin edilmişdir.

B.İ.Hacıyev şikayətində dairə seçki komissiyasına 11 fevral 2020-ci il tarixdə edilmiş müraciətinə dairə seçki komissiyası tərəfindən Seçki Məcəlləsinin 112-ci maddəsinin tələbinə zidd olaraq 3 gün müddətində deyil, 4 gün müddətində baxılmasını mübahisələndirmişdir. Bununla əlaqədar aparılmış araşdırma ilə müəyyən edilmişdir ki, dairə seçki komissiyasının namizəd tərəfindən mübahisələndirilən 15 fevral 2020-ci il tarixli 14/52 saylı qərarı namizədin dairə seçki komissiyasına 13 fevral 2020-ci ildə daxil olmuş şikayəti üzrə çıxarılmışdır.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır.

Eyni zamanda namizəd B.İ.Hacıyevə müraciətində göstərdiyi, araşdırma prosesində əsllərini təqdim etmək istədiyi aktların və digər əlavə materialların təqdim edilməsi təklif edilmiş, ancaq onun tərəfindən həmin aktların və digər sənədlərin təqdim edilməsindən imtina edilmişdir. Qeydə alınmış namizəd imtinasını onunla əsaslandırmışdır ki, əlavə olaraq həmin sənədlərin təqdim olunması araşdırma müddətinin uzanmasına səbəb ola bilər.

B.İ.Hacıyevin müraciətinin araşdırılması səsvermə günü seçki dairəsinin seçki məntəqələrindən sosial şəbəkələrdə yerləşdirilmiş görüntüləri, seçki məntəqələrinin səsvermənin nəticələrinə dair dairə seçki komissiyalarına təqdim edilmiş rəsmi protokolları, namizəd tərəfindən təqdim olunmuş digər seçki materialları və 25 seçki məntəqəsi üzrə səsvermənin nəticələrinə dair protokolların surətini əhatə etmişdir.

Namizəd tərəfindən təqdim edilmiş seçki məntəqələrinin səsvermənin nəticələri haqqında doqquz protokolun surətinin möhürlü və imzalı olmaqla məntəqə seçki komissiyalarının tərtib edərək təqdim etdiyi rəsmi protokollarla eynilik təşkil etməsi müəyyən olunmuşdur.

Araşdırma zamanı namizədin şikayətinə əlavə etdiyi və məntəqə seçki komissiyalarından əldə edilməsi iddia olunan səsvermənin nəticələrinə dair protokolların surətlərinin rəsmi təqdim edilmiş protokollarla eyni olub-olmamasını müəyyən etmək üçün onlara müqayisəli baxış keçirilmiş və müəyyən edilmişdir ki, seçki dairəsinin 1, 5, 9, 11, 17 və 25 saylı seçki məntəqələrinin səsvermənin nəticələrinə dair protokollarının surətində və həmin seçki məntəqələri üzrə tərtib edilərək rəsmi təqdim edilmiş protokollarda komissiya üzvləri tərəfindən icra edilmiş imzalar eynilik təşkil etsə də, həmin protokolların surətlərində olan məlumatlarla Mərkəzi Seçki Komissiyasına təqdim edilmiş səsvermənin nəticələrinə dair rəsmi protokollarda olan məlumatlar fərqlidir və seçicilərin iradə ifadəsini müəyyənləşdirməyə imkan vermir. Aşkar edilmiş qanun pozuntuları seçicilərin iradəsini müəyyənləşdirməyə imkan vermədiyindən qeyd edilən seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün hüquqi əsas yaranmışdır.

Müraciətə əlavə edilmiş 2, 13, 28 və 29 saylı seçki məntəqələrindən alınması iddia olunan möhürsüz və təsdiq olunmamış səsvermənin nəticələrinə dair protokolların surətlərinin rəsmi protokollarla müqayisəli araşdırılması ilə surətlərdəki imzalarla rəsmi protokollarda komissiya üzvlərinin imzalarının tam fərqli olması müəyyən edilmişdir. Qeyd edilən protokolların surətlərinin qanunauyğun olaraq təsdiqlənməməsi və möhürsüz olması onların araşdırma predmeti olmasını mümkünsüz edir.

Araşdırmaya təqdim edilmiş 15, 18 və 22 saylı seçki məntəqələrindən əldə edilməsi iddia olunan səsvermənin nəticələrinə dair möhürlü və imzalı protokolların surətlərindəki imzalarla rəsmi protokollarda komissiya üzvlərinin imzalarının fərqli olduğu müəyyən edildiyindən xüsusi biliyə malik xətşünas ekspertlər dəvət edilərək həmin imzalar araşdırılmışdır. Ekspertlər tərəfindən verilmiş rəyə əsasən protokolların surətlərindəki imzalar rəsmi protokollardakı imzaları icra etmiş şəxslər tərəfindən deyil, müxtəlif şəxslər tərəfindən icra olunmuşdur. Müəyyən olunmuş bu halla bağlı 15, 18 və 22 saylı seçki məntəqələrinin məntəqə seçki komissiyalarının sədr və üzvlərinin izahatları alınmışdır. Həmin izahatlarda göstərilir ki, səsvermənin nəticələrinə dair fərqli məlumatlar olan protokol surətlərindəki imzalar onlar tərəfindən icra edilməmiş və həmin protokolların surətlərinə möhürlərin hansı şəraitdə və kim tərəfindən vurulması onlara məlum deyildir. Belə olan halda həmin protokolların surətləri hüquqi nəticə doğuran sübut kimi qiymətləndirilə bilməz.

29 saylı Səbail seçki dairəsinin seçki məntəqələrindən sosial şəbəkələrdə yayımlanmış və namizəd tərəfindən təqdim edilmiş elektron məlumat daşıyıcısında olan görüntülərin araşdırılması ilə 1 saylı seçki məntəqəsində bir seçicinin iki dəfə səs verməsi, daşınan seçki qutusunun qanunvericiliyin tələblərinə zidd olaraq kənarda olması müəyyən edilmişdir. Qeyd edilən hallar seçki məntəqəsi üzrə səsvermənin nəticəsinin etibarsız hesab edilməsi üçün hüquqi əsas yaradır.

Həmin dairənin 5 saylı seçki məntəqəsində qeydə alınmış videogörüntüdə bir seçicinin iki dəfə səs verməsi iddia edilsə də, həmin seçicinin birinci halda seçki komissiyasının üzvünə yaxınlaşdığı, lakin heç bir seçki hərəkəti edilmədən oradan uzaqlaşması müşahidə olunur. İkinci halda isə onun seçki komissiyasının üzvünə yaxınlaşaraq şəxsiyyət vəsiqəsini təqdim etməsi, komissiya üzvü isə şəxsiyyət vəsiqəsinə baxdıqdan sonra seçiciyə qaytarması və seçicinin səsvermə bülleteni almadan seçki məntəqəsindən getməsi müşahidə olunur. Bu görüntüdə hər hansı bir pozuntu müəyyən edilmir.

Araşdırmanın nəticəsi olaraq digər məntəqələr üzrə sosial şəbəkələrdə paylaşılmış və namizəd tərəfindən təqdim edilmiş elektron məlumat daşıyıcısında olan görüntülərin araşdırılması ilə seçkilərin nəticəsinə və seçicilərin iradəsini ifadə etməyə imkan verməyən pozuntular müəyyən edilməmişdir.

Seçki dairəsinin 1, 5, 9, 11, 17 və 25 saylı seçki məntəqələrində yol verilmiş yuxarıda qeyd edilən pozuntular seçki qanunvericiliyinin tələblərinə görə həmin seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün hüquqi əsaslar yaratmışdır.

Göstərilənlərə əsasən müraciət qismən təmin edilməli, dairə seçki komissiyasının mübahisələndirilən qərarı ləğv edilməli və seçki dairəsinin 1, 5, 9, 11, 17 və 25 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 29 saylı Səbail seçki dairəsi üzrə qeydə alınmış namizəd Hacıyev Bəxtiyar İlyas oğlunun 14 fevral 2020-ci il tarixli 196 saylı müraciəti qismən təmin edilsin, həmin seçki dairəsi dairə seçki komissiyasının 15 fevral 2020-ci il tarixli 14/52 saylı qərarı ləğv edilsin.

2. 29 saylı Səbail seçki dairəsinin 1, 5, 9, 11, 17 və 25 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin, müraciət qalan hissələrdə təmin edilməsin.

3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*18.02.2020*

# Ermənilər sosial şəbəkələrdə od püskürdülər:

# «İlham Əliyev Paşinyanı rüsvay etdi»

## "Niyə Azərbaycan Prezidentinə həmişə "hə", bizə isə "yox" deyirlər"

*Əvvəli 1-ci səh.*

Bütöv Erməni Milli Tərəqqi təşkilatının həmsədri Lusine Aroyan-Dallakyan "Facebook" sosial şəbəkəsində Münxendə Azərbaycan Prezidenti İlham Əliyevlə debat zamanı Ermənistanın baş naziri Nikol Paşinyanın biabırcasına məğlub olduğunu yazıb: "Mətbuat konfransını izlədim. Biz biabırcasına uduzduq. Əgər erməni olmasaydım, Əliyevə inanardım. O yaxşı hazırlaşmışdı, jestlərin dili savadlı seçilmişdi. Paşinyan nə bir suala tam cavab verdi, nə də əks-zərbələr vurdu. Əliyev öz xeyrinə onu çatdırdı ki, Qarabağ Azərbaycanın tərkibindədir. Paşinyan bu sahədə lazımlı biliklərə malik deyildi və yarımçıq cavabları onu gülməli vəziyyətə saldı. O həmçinin Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanılmasının qeyri-mümkünlüyü barədə heç nə deyə bilmədi. Yaxşı ki, sonra köməyinə Böyük Tiqran yetişdi. Amma qələbə artıq Əliyevin tərəfində idi".

### "Sarı bulvar qəzetinin üçüncü sort reportyoru"

Publisist Artak Vardanyan isə "Facebook"da Münxen debatı ilə bağlı paylaşdığı statusda Paşinyanı "sarı bulvar qəzetinin üçüncü sort reportyoru" adlandırıb. Bildirib ki, Paşinyana istənilən rəsmi tədbirdə ingiliscə danışmaq qanunvericilik səviyyəsində qəti qadağan edilməlidir: "Bilirəm ki, heç onun ruscası da yaxşı deyil. Dinləmək məcburiyyətində qalmışam, ona görə deyirəm. Lakin onun ingiliscəsi sadəcə olaraq qorxuncdur! Yarımçıq frazalar. Uyğun sözün əzablı axtarışı, öz bədəninin müxtəlif hissələrini qeyri-ixtiyarı qurdalama... Onun münaqişənin tarixçəsi və mahiyyəti barədə bilikləri, baxmayaraq ki, iki ilə yaxındır ölkəyə rəhbərlik edir, tamamilə səthidir və Paşinyan hələ də sarı bulvar qəzetinin üçüncü sort reportyoru səviyyəsində qalıb".

Politoloq Andranik Tevanyan isə "Twitter" sosial şəbəkəsində baş nazirin şəkilini paylaşaraq yazıb ki, Paşinyan yenidən sübut etdi ki, dövlət başçısı kostyumu onun əyninə çox böyükdür.

### "Bəlkə sən tarix haqda danışmayasan, "brat"?"

Ermənistanın keçmiş müdafiə naziri Artak Zakaryan da "Facebook" hesabında yazıb ki, Münxen debatında qalib yenə İlham Əliyev oldu: "Mən heç vaxt Paşinyandan Qarabağ məsələsində müsbət irəliləyiş və ya həll gözləmirdim və bu barədə deyirdim. Münxendə baş verən qeyri-mütəşəkkil, yarımçıq söhbət olan bütün ümidləri də sarsıtdı. Aydındır ki, Paşinyan hətta Qarabağ məsələsinin həlli ilə bağlı fasiləyə belə tab gətirə bilmir. İlham Əliyev danışıqlar prosesində məsələni mərhələli həll yoluna yönəltdiklərini bir daha qeyd etdi. İlham Əliyev bizə öz müqəddəratımızı təyin etmək üçün başqa bir yer tapmağı tövsiyə edərkən, Paşinyan niyə yenidən Tiqran dövrünə qayıdır və orada olanlarda gülüş doğurur? Keçmiş xatirələrə və tarixi mübahisələrə nə ehtiyac var axı?

Ermənistanın Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanovun "Facebook"da paylaşdığı status çoxlu "bəyənmələr" toplayıb: "Paşinyan-Əliyev debatına baxdınız? Bir neçə dəqiqə ərzində Ermənistanın və Qarabağın qapısından o qədər avtoqol buraxdı. Münxen konfransında populizm işə yaramadı. Və daha biri: Böyük Tiqran haqda danışmazdan qabaq Bospor çarlığını, Roma imperiyasını yada sal. Bəlkə sən tarix haqda danışmayasan, "brat"?"

### "Bu, Paşinyan üçün Yerevanda, meydanda çıxış etmək deyil"

Erməni müğənni Anna Xovner də Paşinyanın debatdakı çıxışını "İnstagram" sosial şəbəkəsində çox aşağı səviyyədə qiymətləndirib: "Ermənistan adına tarixin ən bərbad günlərindən birini yaşadıq. İlham Əliyev qarşısında Paşinyanın tutarsız iddialarını dinləyərkən utandığımdan az qaldı yerə girim".

### "Paşinyan da İlham Əliyev qarşısında daim məğlubdur"

İxtisasca iqtisadçı olan Stepan Qriqoryan "Odnoklassniki" sosial şəbəkəsində yazır ki, acı həqiqət olsa da, demək lazımdır. İlham Əliyev yenə müxtəlif cəhətdən Ermənistan rəhbərlərindən çox öndə olduğunu göstərə bildi: "Paşinyanın ingilis dilində danışığı yeni kursa başlayan tələbələri xatırlatdı. Bu necə ifadə tərzidir, utancvericidir. Düşmən ölkə olsa da, düzünü demək lazımdır. İlham Əliyev psixoloji cəhətdən Paşinyanı "sındırdı".

"Facebook" sosial şəbəkəsində Münxendəki debatla bağlı xəbərə münasibət bildirən, profilinə baxdıqda müəllim olduğu nəzərə çarpan Henrix Qraparyan yazır ki, kaş o görüş baş tutmazdı: "Dostlar, bir-birimizi aldatmayaq. Yalan danışmayaq. Əlim gəlmir yazmağa, amma həqiqət bir idi. Əliyev Paşinyanı milyonların gözü qarşısında rüsvay etdi. Öz vətəndaş mövqeyimi nümayiş etdirirəm. Çəkinmədən fikrimi bildirirəm. İstəyirlər gəlib məni aparsınlar. Ünvanımı da yaza bilərəm. Sarkisyandan sonra Paşinyan da İlham Əliyev qarşısında daim məğlubdur, bizim nə vaxt qalib rəhbərimiz olacaq? Azərbaycan Prezidenti Ermənistanla kifayət qədər sərt tonda danışır, zaldakılar da Paşinyanın biabırçı ingilis dilini lağa qoyub gülürdülər. Nə məcburdur axı, özünü də, erməni xalqını da biabır eləndin".

### "Paşinyan tələbəyə, İlham Əliyev isə imtahan götürən professora bənzəyirdi?"

"Facebook" sosial şəbəkəsində Arutyun Barseqyan bir neçə minlik üzvü olan qrupda şərh yazaraq Paşinyan haqqında tənqidi fikirlər səsləndirən insanlara çağırış edib. O belə şərhlərin və paylaşımların Azərbaycanda diqqətlə izlənildiyini, İlham Əliyevə üstünlük qazandırdığını xüsusilə vurğulayıb. Yazılan bu şərhə rəy bildirən Qaqik Vazgenyan adlı biri isə verdiyi maraqlı cavabı ilə diqqət çəkib: "Buradan sözüm sizədir, Paşinyanı müdafiə edən Arutyun... Həqiqəti yazmaq nə vaxtdan vətən xainliyi olub? Yaxşı ki, sosial media var. Baş naziri Münxendə izlədik. Kaş izləməz olaydıq. Sanki İlham Əliyev debata Paşinyanla məzə tutub, əhvalını yüksəltmək üçün gəlmişdi. Düz söz niyə qıcıq oyadır? Sosial media vasitəsilə çağırışlarımızı uzaq Azərbaycanda eşidirlər, amma səsimiz buradakılara çatmır".

Dezik Baqdasaryan adlı istifadəçi isə "Twitter"də yazır: "Paşinyanın hakimiyyətə gəlməsi üçün hər şey etdik. Gecələr yuxusuz qaldıq. Lakin onun rəhbərliyi altında indiyədək Ermənistan hər sahədə məğlub olur. Münxendə isə əsl biabırçılıq yaşandı. Paşinyan tələbəyə, İlham Əliyev isə imtahan götürən professora bənzəyirdi. Bizim baş nazirin hər cümləsində səhvini düzəldirdi. Münxendə də İlham Əliyev onu əzdi. Azərbaycan Prezidentinə həmişə "hə", bizə isə "yox" deyirlər".

### "Məğlubiyyəti Paşinyanın özü də heç vaxt unuda bilməyəcək"

Noyamberyan rayonundan olan Qriqor Nalbadyan adlı biri "Vkontakte" şəbəkəsində Nikol Paşinyanın debatdakı məyus fotosunu paylaşaraq İlham Əliyevə cavab verə bilməməsindən gileylənir: "Baxın, ay millət! Belə baş nazir olar? (gülüş işarəsi). Dünyanın heç bir yerində bu cür keyfiyyətsiz ölkə rəhbəri yoxdur".

"Facebook" sosial şəbəkəsinin Ruben Dallakyan adlı istifadəçisi yazır: "Ermənistan mətbuatı nə qədər Paşinyanın tərəfini saxlasa da, həqiqət budur: Münxen debatında da biz uduzduq. Ermənistan tarixinin ən utancverici günlərindən birini yaşadıq. Bu məğlubiyyəti Paşinyanın özü də heç vaxt unuda bilməyəcək".

Robert Nalbadyan adlı biri "Instagram"da Paşinyan tərəfdarlarının daha çox rəy bildirdiyi qrupda maraqlı bir şərhlə diqqət çəkib və bununla da onların kəskin tənqidi ilə üzləşib. O yazıb: "Bayaqdan statuslarınıza baxıram və bu qədər yalana heç özünüzün də inanmadığınızı düşünürəm (gülüş işarəsi). Gəlin həqiqəti danmayaq. Paşinyan Münxendə Ermənistanı rüsvay etdi. Zala fikir verdiniz? Paşinyan sanki debata yox, hamını güldürməyə çıxmışdı".

Yuxarıda qeyd etdiyimiz statuslara və şərhlərə daha çoxunu əlavə etmək olar. Göründüyü kimi, son günlər Münxen Konfransındakı debatdakı uğursuzluqdan şok yaşayan ermənilər sosial şəbəkələrdə Paşinyandan hesab sorurlar.

**Elçin CƏFƏROV, "Azərbaycan"**


## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 05.02.2020-ci il tarixdə keçirilmiş LOT-1 "Bakı Metropoliteni" QSC-nin N.Nərimanov adına elektrik Deposu ərazisində "Depolar üzrə iş Departamenti" üçün İKT infrastrukturunun yaradılması işlərinin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə "Bakinity Distribution" MMC qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə 17.02.2020-ci il tarixdə ƏDV daxil 1206270,95 (bir milyon iki yüz altı min iki yüz yetmiş manat 95 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 21 noyabr 2019-cu il tarixdə elan edilmiş "26112 sayda ADSL, 8 GPON port tutumlu OLT və 2176 POTS port tutumu yaradılması üçün DSLAM avadanlığının satın alınması" üzrə açıq tender proseduru üzrə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və tenderin qalibi "Huaei International PTE" LTD müəyyən edilmişdir.

"Aztelekom" MMC ilə "Huaei International PTE" LTD arasında 10 fevral 2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## "Azərpoçt" MMC
## tabeli poçt müəssisələrinin mal-materiallarla təmin edilməsi üzrə
## *tender elan edir*

LOT1: Plastik kart pəstahları

Tender iştirakçılarına təklif edilir ki, http://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi: 250 AZN məbləğində pul vəsaitini aşağıdakı Bank hesabına köçürməlidir:

**"Azərpoçt" MMC**
**VÖEN: 9900037711**
**Bankın adı: "Azərpoçt" MMC**
**Kodu: 690001**
**VÖEN: 9900037711**
**Müxbir hesab: AZ76NABZ01350100000000094944**
**Hesab №-si: AZ82AZPO99995381000420000125**
**S.W.I.F.T.Bik: AZPOAZ22**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər, təqdim olunacaq malların mənşə və uyğunluq sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi. Təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *iddiaçının tender təklifinin bank təminatı (zərflər açıldığı gündən ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 13 mart 2020-ci il saat 15:00-dək, tender təklifini və tender təklifinin bank təminatını isə 30 mart 2020-ci il saat 15:00-dək dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri 31 mart 2020-ci il saat 15:00-da açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar: Oktay İsmayılov - Tender komissiyasının üzvü (tel.: (+99412) 493-56-00, faks: (+99412) 493-00-37).

*Tender komissiyası*

## Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi IV Respublika Xalq Teatrları Festivalının və "Azərbaycanın mədəni marşrutlar üzrə potensialı" mövzusunda Respublika Müşavirəsinin, həmçinin beynəlxalq və respublika əhəmiyyətli sərgi, yarmarka və festivallarda iştirak zamanı stendin icarəsi və quraşdırılması işlərinin təşkili işlərinin satın alınması ilə əlaqədar
## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

IV Respublika Xalq Teatrları Festivalının və "Azərbaycanın mədəni marşrutlar üzrə potensialı" mövzusunda Respublika Müşavirəsinin, həmçinin beynəlxalq və respublika əhəmiyyətli sərgi, yarmarka və festivallarda iştirak zamanı stendin icarəsi və quraşdırılması işlərinin təşkili işlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, http://etender.gov.az/ dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Əlaqələndirici şəxs: Seymur Həsənov**
**Email: seymur.hasanovs@gmail.com**
**Əlaqə telefonu: 012 498-19-94**

**İştirak haqqı: 250 (iki yüz əlli) manat**

**Hesab: AZ78CTRE00000000000002178501**
**VÖEN: 1700015381**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T: CTREAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar öz təkliflərini əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun olaraq hazırlamalı, tenderdə iştirak etmək üçün tələb olunan sənədləri 12 mart 2020-ci il saat 11:00-a qədər, tender təkliflərini isə 27 mart 2020-ci il saat 11:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

Zərflər 30 mart 2020-ci il saat 11:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar Portal vasitəsilə aparılır.*

*Tender komissiyası*




NAKAM TALELƏR

# Xəyanətin qurbanı

**2018-ci ildə azərbaycanlıların soyqırımının 100 illiyinə dair respublikamızda, eləcə də bir çox xarici ölkədə maraqlı tədbirlər keçirildi. Tarixin qanlı səhifələri vərəqləndi, yeni sənədlər, arxiv materialları üzə çıxdı, kitablar nəşr edildi, sərgilər təşkil olundu, filmlər çəkildi, vətənpərvər insanlar anıldı. Xatırlananlardan biri də XX əsrin əvvəllərində Gədəbəyin Şınıx nahiyəsində erməni silahlı quldurlarının hücumlarının qarşısını almaq məqsədilə yaradılmış özünümüdafiə dəstəsinə başçılıq edən Qaçaq Cəfərquludur.**

Cəfərqulu Həsən oğlu Orucov 1897-ci ildə Gədəbəyin Mormor kəndində dünyaya göz açmışdı. Atası Həsən kişi, anası Nənəxanım sadə kənd adamı idilər. Cəfərqulu nə məktəbdə oxuyub, nə gimnaziya bitirmişdi. Nə bəy olub, nə qolçomaq. Amma ucaboy, irigövdəli, çevik və qorxmaz bir igid idi. Ağlı kəsəndən kəndlərinə hücum edən, el-oba adamlarının mal-qarasını oğurlayan, azərbaycanlı ailələrin qanına susayan terrorçu ermənilərlə mübarizə aparıb.

Cəfərqulu günün çox hissəsini dağda-dərədə keçirirdi, "ova" gələn erməninin axırına çıxırdı. Dəfələrlə dağda, örüş yerində rastlaşdığı erməni İranda, Türkiyədə ölmüşlərinin canına and içərək Cəfərqulunu inandırmağa çalışırdı ki, o, bu yerlərə təsadüfən gəlib, ya deyirdi, inəyim itib, onu axtarıram, yaxud da filan kənddə qohumum var, ora gedirəm. Amma bir neçə gündən sonra məlum olurdu ki, Qaraqayada çobanları öldürüb mal-qaranı aparan elə həmin erməni imiş. Ona görə də Cəfərqulu çiynində tüfəng dağlardan-dərələrdən yığılmırdı.

Yeri gəlmişkən, ötən əsrin əvvəllərində erməni qətliamlarına və basqınlarına qarşı çıxdığı üçün Cəfərqulunun böyük qardaşı Abuzəri Yelizavetpol (Gəncə) quberniya xəfiyyələri həbs edib Sibirə sürgünə göndərmişdilər. 1914-cü ildə Abuzərin Sibirdən gələn ölüm xəbərindən sonra Cəfərqulunun erməni quldurlarına və onların havadarlarına nifrəti daha da artmışdı.

Erməni qəsbkarları tək Mormora yox, Gədəbəyin digər kəndlərinə də basqın edirdilər. Hətta yay aylarında bu dağlara dincəlməyə gələn, mal-qarasını yaylaq yerinə gətirən Şəmkir və Tovuz sakinlərinə də silahlı hücumlar edirdilər. Şəmkirin Qaracəmirli və Qazpanlı kəndlərindən yaylağa gedən qoyun-quzu, mal-qara sürülərinin çobanlarına göz verib işıq vermirdilər. Dağ və ya meşə yolunda çobanlara qəflətən hücum edib soyurdular, qoyun-quzunu oğurlayırdılar. Hətta arabalarındakı qəndi, çayı, unu belə əllərindən alırdılar. Dəfələrlə baş verən insidentdə atışma zamanı hər iki tərəfdən ölənlər və yaralananlar olmuşdu. Tovuzun Əlimərdanlı kəndindən Kərbəlayi Kərimin və Məşədi Bəşirin ailələri Alatalada yaylaqda olarkən övladları Qədiri, Nadiri və Paşanı valideynləri ilə birlikdə amansızcasına qətlə yetirib nəyi varsa, götürüb aparırlar. Məşədi Bəşirin azyaşlı oğlu Adil qətlə yetirilənlərin cəsədi altında qaldığından ermənilərin diqqətindən yayınmış və sağ qalmışdı. Quldurlar gedəndən sonra Adil Tovuza gəlib hadisəni xəbər verir. Aradan illər keçəndən sonra bolşeviklər onu qolçomaq adı ilə tutub Sibirə sürgün edirlər.

Alatala faciəsinin ağrı-acısı unudulmamış daşnaklar axşamçağı ot biçinindən qayıdan dörd mormorlunu yolda vəhşicəsinə qətlə yetirirlər, cəsədlərini gizlədirlər. Cəfərqulu quldurlara xəbər göndərir ki, meyitləri qaytarın. Cəfərqulunun adını eşidən ermənilər həmin gün meyitləri gətirib deyilən yerə qoyurlar.

Erməni vəhşiliklərinin qarşısını almaq üçün Cəfərqulunun böyük qardaşı Abbasəli, əmisi oğlanları Paşa, Ağbaş Məhəmməd, Dadaş, Qulu, İsrəfil, bibisi uşaqları Əsəd və Zülfüqar da ona qoşulmuşdular.

Növbəti dəfə ermənilər Quzğun qayasının yaxınlığından mormorluların mal-qarasını, qoyun-quzusunu sürüb aparırlar. Hamı Cəfərquludan kömək umur. Cəfərqulu mal-qara aparan ermənilərə xəbər göndərir ki, bu işin axırının pis qurtarmasını istəmirsinizsə, mal-qaranı geri qaytarın. Bir neçə gün gözləyir, səs çıxmayanda təkrar yenə adam göndərir, nəticəsi olmur. Cəfərqulu dəstə üzvlərini götürüb yollanır həmin ermənilərin qoyun-quzuları otarılan örüşə tərəf, orada ermənilərin nə qədər mal-qarası varsa, yığıb gətirir kəndə. Kimin nə qədər qoyun-quzusunu aparmışdılarsa, sayıb əvəzini verir, yerdə qalanını isə kasıblara paylayır.

Basqınların təşkilatçısı və baş icraçısı, "Daşnaksütyun" terror dəstəsinin üzvü Boqrat bilirdi ki, Cəfərqulu onları axtarır, girəvə düşən kimi istədiyini edəcək. Odur ki, Cəfərquluya yaşadığı əraziyə yaxın yaylaq yerində qəfildən hücum edib öldürməyi qərara alırlar. Bu məqsədlə yaylağa "Daşnaksütyun"un sıralarında təlim görmüş bir erməni göndərirlər. O, yaylaqda alaçıq qurur, qonşularla və ətrafda qoyun-quzu otaranlarla münasibət yaradır. Lakin günlər keçsə də, erməni ona tapşırılan işin öhdəsindən gələ bilmir. Məcbur olub əraziyə basqın etməyi, bu qarmaqarışıqlıqda nəyin bahasına olursa-olsun Cəfərqulunu öldürməyi planlaşdırırlar. Həmin erməniyə də tapşırırlar ki, "camaata desin ki, daşnaklar sizi qırmağa gələcəklər, qaçıb getsinlər, camaat azalsa, istəyimizə daha tez nail ola bilərik". Erməni hamı tərəfindən tanındığı üçün, həm də ondan şübhələnməsinlər deyə, "bu gün daşnaklar sizi qıracaqlar, tez olun qaçın" deyib, özü də üz tutur naməlum istiqamətə.

Amma yerli camaat hay-küyə getmir, Cəfərqulu bəndi-bərəni bərkidib, kənd igidləri ilə Araba yolunun yaxınlığında mövqe tutur. Demə, daşnaklar onlardan əvvəl gəlib pusqu qurublarmış.

Cəfərqulunun dəstə üzvləri gecənin bir aləmində silahı bir tərəfə qoyub təzəcə mürgüləmişdilər ki, ermənilər onları atəşə tuturlar. Yaxşı silahlansalar da, düzgün mövqe tuta bilməyən ermənilər itkilərinin sayının anbaan çoxaldığından silah-sursatlarını tullayıb qaçırlar...



Xalqımızı erməni qırğınından xilas etmək üçün 1918-ci ildə Azərbaycana gələn Nuru paşa yerli əhalinin hesabına canlı qüvvələri artırmaq üçün Azərbaycan hökuməti tərəfindən ona verilmiş səlahiyyətlərdən istifadə edərək 11 iyun 1918-ci ildə 1894-1899-cu illərdə anadan olmuş gənclərin orduya səfərbər edilməsi haqqında əmr verir. Hətta Əlağa Şıxlinski ilə Gəncəbasarın qərb yaşayış məntəqələrinə gedərək əhalini vətəni düşməndən müdafiə etməyə çağırırdı. Onların çağırışına əhali böyük coşqu ilə cavab verirdi. Bu zaman Qazaxa gedib könüllü döyüşçülər sırasına yazılan Cəfərqulunun yaxın qohumu Cabbar və Muxtar Nuru paşaya Cəfərqulunun yaxşı tüfəng atan, qorxmaz və döyüşkən olduğu haqqında danışır və onun da bu bölgüyə salınmasını təvəqqe edirlər. Onlar növbəti gün Cəfərqulunu Nuru paşa ilə görüşdürürlər.

Paşa 21 yaşlı Cəfərqulu ilə tanışlıqdan məmnun qalıb deyir ki, "gəl səni göndərək İstanbula, hərbi təhsil al, səndən yaxşı hərbçi olar..." Cəfərqulu təşəkkür edib deyir ki, el-obamdan ayrı düşsəm, erməni cəlladları o kəndi yerlə-yeksan edərlər. Nuru paşa Mormordan türk ordusu sıralarına qoşulmağa gələn Cabbarla Muxtara tapşırır ki, siz də gedin bu igidə arxa olun.

Qanlı-qadalı illərdə Qafqaz İslam Ordusu Gəncədən Bakıya kimi erməni daşnakları ilə ölüm-dirim savaşına qatılanda Cəfərqulu da silahdaşları ilə Şınıx istiqamətində erməni silahlıları ilə mübarizə aparırdı. Gəncədə, Dəstəfurda (indi Daşkəsən), Gədəbəydə, Şəmkirdə ermənilər bolşeviklərlə əlbir olub Milli Hökuməti sarsıtmaq üçün azərbaycanlılara qarşı terror və qətliamlar törədirdilər. Gədəbəyin bir tərəfində əliyalın camaatın müdafiəsində Mustafa ağa, Qaçaq Məcid və Məşədi Mehralı dayanırdısa, digər tərəfində Qaçaq Cəfərqulu və onun dəstə üzvləri dururdular. Təəssüf ki, bu mübarizədə bolşevik-daşnak birləşmələrinin köməyinə gələn XI ordu 1920-ci ilin aprelində Milli Hökuməti devirdi. Bu məqamdan istifadə edən şaumyanlar, andraniklər azərbaycanlı əhaliyə qarşı qətliamları daha da şiddətləndirdilər. 1920-ci ildə Qaçaq Cəfərqulu inqilabi hökumətin əsgərləri tərəfindən həbs edilib Bakıya Bayıl türməsinə göndərilir. Necə olursa, Cəfərqulu buradan qaçır və yenidən Gədəbəyə, doğma kəndinə qayıdır. Həmin dönəmdə çox adam dağlara, bir qismi Kürqırağı ormanlara çəkilib ölkəni başdan-başa bürüyən Milli Müqavimət Hərəkatına qoşularaq ölüm-dirim savaşına qatılmışdı. Gədəbəy nahiyəsində Qaçaq Cəfərqulunun mövqeyi bolşevik-erməni məmurlarına bəlli idi. O, bütün dəstə üzvləri ilə Mustafa ağanın yaratdığı və Qaçaq Məcidin başçılıq etdiyi Həqiqi Sinfi Mübarizə Təşkilatının sıralarında xalqımızın milli müstəqilliyini əlindən alan və azərbaycanlıların soyqırımını həyata keçirən imperiya qüvvələrinə qarşı son damla qanınadək mübarizə aparmağı qərara almışdı.

İnqilabi hökumətin nümayəndələri çuğul komsomolçuların vasitəsilə Cəfərqulunun yerini biləndən sonra mühasirəyə salıb diri tutmaq, ya da öldürmək istəyirdilər. Lakin bu plan hər dəfə iflasa uğrayırdı, yerli şəraitə yaxşı bələd olan Cəfərqulu bolşevik əsgərləri onun üstünə gələndə dəstə üzvləri ilə gizli yollarla dağlara çəkilirdi. Gəncə qəzasında, habelə inqilabi hökumətin Gədəbəy, Şəmkir, Tovuz bölmələrinin qapalı yığıncaqlarında Milli Müqavimət Hərəkatının Gədəbəyin Şahtalası istiqamətində Məcid ağa, Mustafa ağa, Məşədi Mehralı ilə yanaşı, Şınıx nahiyəsində Qaçaq Cəfərqulunun da tezliklə tutulub məhv edilməsi iki gündən bir gündəmə gətirilirdi. 1926-cı il mart ayının əvvəllərində "Novruz çərşənbələrində ola bilməz ki, Cəfərqulu evə baş çəkməyə gəlməsin" deyə belə ehtimalla Cəfərqulunu məhv etməyi planlaşdırırlar. Buna görə NKVD-nin Tovuz rayon şöbəsində söhbətdən keçmiş, təlimatlandırılmış və silahlandırılmış 14 nəfərlik dəstə yaradılır.

Cəfərqulunun öldürülməsi konkret olaraq NKVD sıralarına qatılmış, onu yaxından tanıyan İbrahimə tapşırılır. İbrahim çar dönəmində Gürcüstanın azərbaycanlılarla həmsərhəd ərazilərində çapovulçuluqla məşğul olardı. Yeni hökumət qurulandan sonra bolşeviklərə qoşulub NKVD işçisi olmuşdu. Ona görə NKVD-nin Tovuz rayon şöbəsinin rəisi işi ona tapşırmışdı.

Atlılar Mormora girəndə kənd camaatı "Görəsən, kimi güllələməyə, ya həbs etməyə gəlirlər?!" deyə vahimələnir. Bu gəlişi Dumanlıdan Cəfərqulu, Paşa, Ağbaş Məhəmməd, Əsəd və digərləri də görürlər. Dəstə Cəfərqulunun həyətinə keçir, onu evdə tapmayanda atların ağzını birbaşa Dumanlıya tərəf salırlar.

Cəfərqulu gələnlərin arasında özünü ona dost kimi təqdim edən İbrahimi, Qoltaxsaz oğlu İsrəfili tanıyır. Xeyli aralıdan səslənir: "Niyə gəlmisiniz?!"

İbrahim, sonra da İsrəfil dillənir ki, qapına qonaq gəlmişik, ürəyinə heç nə gəlməsin, acmışıq, gəl, bir yerdə çörək yeyək.

Onların təklifini kişi sözü kimi qəbul edən Cəfərqulu silahdaşları ilə dağdan düşür, bir yerdə gəlirlər evə. Həyətdə ocaq qalanır, kabab çəkilir. Axıra yaxın Cəfərqulu "təzə, isti kabab gətirim" deyib qapıya tərəf dönəndə dəstəyə rəhbərlik edən hərbi geyimli polkovnik yanındakılara işarə edir ki, məqamdır. İsrəfil və yanındakı "qonaq" arxadan Cəfərquluya hücum edib qollarını tuturlar. Əlbəyaxa dartışmada evin döşəməsi sınır, Cəfərqulunun bir ayağı döşəmənin arasında qalır. Fürsəti fövtə verməyən Qaltaxsız oğlu İsrəfil Cəfərqulunun belindəki xəncəri çıxarıb onun ürəyinə sancır.

Səs-küyə gələn Paşa Cəfərqulunun öldürüldüyünü görəndə beşaçılana əl atıb İbrahimi güllələyir. Dəstə başçısı Paşanı qolundan yaralayıb, yanındakılara əmr edir ki, tutun onu. Cəfərqulunun faciəli ölümünə dözməyən bacısı Əbilin ürəyi partlayır.

NKVD və QPU əməkdaşları Qaçaq Cəfərqulunun meyitini araba ilə Tovuz rayon mərkəzinə gətirib hökumət adamlarına təhvil verirlər.

***

Qanlı-qadalı illərdən xeyli vaxt keçsə də, faciələr yaddan çıxmır, xəyanətin qurbanı olmuş Qaçaq Cəfərqulunun igidliyi unudulmur.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

GÜNAHSIZLAR

# Dəhşətli qətliam - Katın qırğını



**1943-cü ilin aprelində Almaniya Katın meşəsində kütləvi məzarlar aşkarladığı barədə məlumat yaydı. Polşanın Londonda yerləşən mühacir hökuməti Beynəlxalq Qırmızı Xaç Komitəsindən tədqiqat aparılmasını istədi. Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) isə bu faciəyə görə nasistlərin məsuliyyət daşıdığını bəyan etdi. Həqiqət isə başqa idi...**

1939-cu il sentyabrın 1-də Almaniya Polşaya hücum etdi. Böyük Britaniya və Fransa Polşa ilə bağlanmış Anqlo-Polyak və Franko-Polyak hərbi müttəfiqlik müqavilələrinin tələbini yerinə yetirib Almaniyaya müharibə elan etdilər.

Sentyabrın 17-də isə SSRİ Polşanın işğalına başladı. Sovetlər tərəfindən əsir götürülən Polşa əsgər və polisinin sayı bəzi mənbələrdə 250000, bəzisində isə 454700 olaraq qeyd edilib. Çox keçmədən onlardan azad edilənlər də, qaçanlar da oldu. 125000 polyak əsgəri isə SSRİ Xalq Daxili İşlər Komissarlığının nəzarətindəki əsir düşərgələrinə aparıldı. Onlardan Polşa ərazisində yaşayan belarus və ukraynalılardan ibarət 42400 əsgər oktyabrda azad edildi. Həmçinin SSRİ əsir götürdüyü əsgərlərin nasist Almaniyasının işğalında olan qərbi Polşa ərazisində anadan olmuş 43000 nəfərini almanlara təhvil verdi. Əvəzində Almaniya əsirliyində olan polyak əsgərlər arasından şərqi Polşa ərazisində dünyaya gələn 13575 əsgəri sovetlərə yolladı. Polşa vətəndaşları həmin dövrdə sovet repressiyasına məruz qaldılar.

SSRİ Xalq Daxili İşlər Komissarlığı ehtiyatda zabit sayıldıqları üçün ali təhsilli polyak gənclərinin çoxunu əsir götürdü. Polşa Milli Yaddaş İnstitutunun məlumatına əsasən, təxminən 320000 polyak vətəndaşı Sovet İttifaqının müxtəlif yerlərinə deportasiya olundu. Tarixçilər bu sayın 700 min ilə 1 milyon arasında olduğu qənaətindədirlər. Milli Yaddaş İnstitutunun araşdırmasına görə, İkinci Dünya müharibəsi illərində SSRİ tərəfindən 150 min Polşa vətəndaşı müxtəlif vasitələrlə öldürüldü. Dalstroy düşərgəsinə göndərilən 12 min nəfər polyak əsirdən 583 nəfər qurtuldu. Sağ qalanlar 1942-ci ildə şərqi Polşa Silahlı Qüvvələrinə qoşulmaları üçün azad edildi...

SSRİ Xalq Daxili İşlər Komissarlığının rəhbəri Lavrenti Beriya 1939-cu il sentyabrın 19-da Müharibə Əsirlərinin İdarəedilməsi üzrə Baş İdarənin yaradılması ilə bağlı göstəriş verdi. SSRİ Xalq Daxili İşlər Komissarlığı Qızıl Ordudan əsirləri təhvil aldı. Onların saxlanmaları üçün qəbul mərkəzləri, dəmir yolu ilə əsir mübadiləsinin aparılması mümkün olan düşərgələr yaradıldı. Ən böyük düşərgələr Kozelsk, Ostaşkov və Starobelskdə idi. Eyni zamanda Juknovo, Yuze, Tyotkino dəmir yolu stansiyası, Kozelşina, Oranki, Voloq və Qryazovetsdə düşərgələr salındı.

Kozelsk və Starobelsk düşərgələrində polyak zabitləri, digərlərində jandarm, polis zabitləri, həbsxana məmurları vardı. Məlumata görə, Kozelskdə 5000, Ostaşkovda 6570, Starobelskdə 4000 əsir saxlanılırdı.

SSRİ rəhbərliyinin, xüsusilə Stalinin nəzərində əsirlikdəki polyaklar sovet hakimiyyətinə qarşı mübarizə aparacaq güc idilər. Kozelsk düşərgəsindəki məhkumlar Katın meşəsinə aparılaraq güllələndi. Starobelsk düşərgəsindəki məhkumlar Xarkovdakı SSRİ Xalq Daxili İşlər Komissarlığının həbsxanasında öldürüldü, cəsədləri kütləvi Piatixatki kəndi yaxınlığında basdırıldı. Ostaşkov düşərgəsindəki polis zabitləri də Kalinindəki SSRİ Xalq Daxili İşlər Komissarlığı həbsxanasında güllələndi və Mednoye yaxınlığında kütləvi basdırıldı.

1940-cı ilin aprel-may aylarında SSRİ Xalq Daxili İşlər Komissarlığına bağlı qüvvələr 22000 polyak zabit və ziyalısını məhv etdi. Qırğınların Kalinin, Xarkov və başqa şəhərlərdə yerləşən həbsxanalarda da törədilməsinə baxmayaraq, aşkara çıxarılan ilk kütləvi məzarlar Katın meşəsində olduğu üçün bu dəhşətli qətliam tarixə Katın qırğını adı ilə yazıldı.

Qırğınlara Beriyanın əsir götürülən bütün polyak zabit və ziyalıların edamı təklifini Sov.İKP MK Siyasi Bürosu təsdiqlədikdən sonra başlandı. Qətlə yetirilənlərin 8000-i Polşanın 1939-cu ildə işğalı zamanı əsir götürülən zabitlər, 6000-i polis zabiti, 8000-i SSRİ-nin kəşfiyyatçı, mülkədar, təxribatçı, fabrik sahibi, rahib və vəkil olaraq qəbul etdiyi polyak ziyalıları idi. Polşa ordusunun zabitləri və ziyalılar çoxmillətli idi. Öldürülənlərin arasında polyaklar, ukraynalılar, belaruslar, Polşa yəhudi icmasının baş ravvini Baruç Steynberqin də olmaqla yəhudilər vardı.

SSRİ hökuməti Katın qırğınının faşistlər tərəfindən törədilməsinə beynəlxalq ictimaiyyəti inandırmaq, bununla alman hökumətinə nifrət yaramaq niyyətindəydi. Sovetlərin bu cəhdlərini nasist Almaniyası etirazla qarşıladı.

1943-cü ilin 29 sentyabrında Nasist Partiyasının lideri, Üçüncü Reyxin əsas təbliğatçısı, Hitlerin yaxın dostu və silahdaşı Paul Yozef Gebbels gündəliyində qeyd edirdi: "Təəssüf ki, Katından geri çəkilməyə məcbur olduq. Bolşeviklər şübhəsiz ki, 12 min polyak zabitini bizim vurduğumuzu "kəşf edəcəklər". Bu hissə gələcəkdə bizim üçün problem yaradacaq. Sovetlər şübhəsiz ki, çoxlu sayda kütləvi məzarlar kəşf edəcək və bundan bizi məsul tutacaqlar".

Sovetlər 1943-cü ilin sentyabr-oktyabr aylarında Katın bölgəsini yenidən işğal etdi. SSRİ Xalq Daxili İşlər Komissarlığı soyqırımın izlərini itirmək üçün hərəkətə keçdi. Şahidlər "dindirildi", SSRİ-nin mövqeyinə zidd yanaşanlar almanlara işləməkdə günahlandırılmaqla təhdid edildilər.

Bir həqiqət də bu idi ki, qətlə yetirilənlərin üzərlərindən çıxan sənədlər 1940-cı ildən sonraya aid deyildi. Sovet gizli polisi 1941-ci ilin ortalarına aid saxta dəlillər yerləşdirdi. SSRİ Xalq Daxili İşlər Komissarlığının əməkdaşları - Vsevolod Merkulov və Sergey Kruqlov 1944-cü il 10-11 yanvar tarixlərində qırğını almanların törədiklərinə dair hesabat təqdim etdilər.

1944-cü ilin yanvarında sovetlər ərazini araşdırmaq üçün başqa komissiya təşkil etdi. SSRİ Tibb Elmləri Akademiyasının rəhbəri Nikolay Buderenkonun başçılığı ilə Fövqəladə Dövlət Komissiyası cəsədləri çıxartdı, almanların 1943-cü ildə apardıqları tədqiqatın nəticələrini inkar etdi, qətliamın 1941-ci ildə almanlar tərəfindən törədildiyini bildirdi. Komissiyanın "nəticələri" 1990-cı il aprelin 13-də cinayətin işlənməsi rəsmən qəbul olunanadək əsas fakt kimi irəli sürüldü. 1990-cı ilədək SSRİ Xalq Daxili İşlər Komissarlığı qırğınların törədildiyini inkar etdi və rəsmi şəkildə üzr istəmədi.

1990-1991-ci illərdə SSRİ Baş Prokurorluğu və 1991-2004-cü illərdə Rusiya Federasiyası tərəfindən aparılan təhqiqatlar qırğınlara görə SSRİ-nin məsuliyyət daşıdığını təsdiqləsə də, hadisələr kütləvi qətl olaraq qəbul edilmədi. Rusiya tərəfi qırğının qurbanları öldükləri üçün mühakiməni bağladı. Hadisənin sovet hökumətinin təmizləmə siyasəti nəticəsində törədildiyi qəbul edilmədiyindən qətlə yetirilənlərə bəraət verilmədi.

2010-cu ilin noyabrında Rusiya Federasiyası Dövlət Duması qırğın əmri üçün Stalinin və digər sovet dövlət rəhbərlərinin günahkar olduqlarını əks etdirən bəyannaməni təsdiqlədi. Əsl günahkarlar illər boyu məsuliyyətdən və mühakimədən qaçsalar da, sonunda həqiqət üzə çıxdı. Katın qırğını isə bəşər tarixində ən böyük ağrılardan biri kimi qaldı.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

REPRESSİYA QURBANI OLMUŞ ZİYALILARIN HƏYATINDAN MƏQAMLAR

## Azərbaycanın ilk peşəkar qadın pianoçusu repressiya qurbanı oldu



Xədicə Qayıbova Azərbaycanın ilk peşəkar qadın pianoçusu idi. Muğamlarımızı yüksək sənətkarlıqla ilk dəfə fortepianoda ifa etmiş, xalq mahnıları əsasında improvizələr yaratmışdı. 1938-ci il martın 16-da XDİK DTİ-nin birinci bölməsinin üçüncü şöbə rəisinin müavini leytenant Tevosyan belə bir arayış hazırlayır: "Türk və ingilis qərargahları Bakıda olduqları zaman Azərbaycan Dövlət Konservatoriyasının keçmiş müəllimi Xədicə xanım Qayıbova onlarla əlaqə saxlayır və həmin zabitləri evinə qonaq çağırırdı".

Bir faktı qeyd edək ki, Xədicə xanım hələ 1933-cü ildə hüquq mühafizə orqanları tərəfindən şübhəli şəxs kimi casusluqda ittiham olunmuş və üç ay müddətinə həbs edilmişdi. Onu əksinqilabi fəaliyyətdə və türkçülük ideyalarını yaymaqda günahlandırırdılar. Lakin bunu təsdiq edən heç bir sübut tapılmamış və Xədicə xanım həbsdən azad olunmuşdur.

X.Qayıbova iki dəfə ailə həyatı qurmuşdu. İstər əvvəlki, istərsə də sonrakı həyat yoldaşı dövrünün ziyalı insanları olmuşlar. Yazılanlara görə, birinci ailəsi tez dağılmışdı. İkinci həyat yoldaşı Rəşid Qayıbovu isə ictimai-siyasi fəaliyyətində dövlət əleyhinə iş aparılması və əksinqilabi millətçi təşkilatın üzvü kimi 1937-ci ilin noyabrında həbs etmişdilər. O da repressiya qurbanlarından olmuşdur.

1938-ci il martın 17-də Dövlət Təhlükəsizlik İdarəsi Xədicə xanımı 4390 nömrəli orderə əsasən həbs edir. O, yeddi dəfə erməni müstəntiqləri tərəfindən dindirilir. X.Qayıbovanın işi üzrə istintaqın qurtarması haqqında protokol 1938-ci il mayın 7-də tərtib edilir. Ertəsi gün isə müstəntiq Tevosyan 23311 nömrəli istintaq işi üzrə ittihamnamə yazır. Qayıbova Azərbaycan SSR Cinayət Məcəlləsinin 68-ci maddəsi ilə müqəssir hesab olunur.

Xədicə xanım altı ay həbsxanada saxlanılır. Lakin heç vaxt ağlına belə gətirmir ki, onu güllələyə bilərlər. Məhkəməsi 15 dəqiqə çəkir. Güllələnmə hökmü 1938-ci il oktyabrın 27-də icra edilir. Xədicə xanımın övladları və qohumları onun güllələndiyini 16 il sonra bilirlər.

## 1956 nömrəli məhbus




Teymur Heydər oğlu Salahovun həyat və fəaliyyəti sosializm ideyalarına xidmət işində keçmişdi. Minlərlə Azərbaycan ziyalısı kimi, o da, bu yeni ictimai quruluşun xalqlara xoşbəxtlik gətirəcəyinə ürəkdən inanmışdı. Lakin minlərlə Azərbaycan ziyalısı kimi onun da bu inamının üstündən 30-cu illərin repressiya maşını qanlı bir xətt çəkmişdi. T.Salahov Azərbaycan K(b)P-nin Dəstəfur və Laçın rayon komitələrinin birinci katibi kimi məsul vəzifələrdə işləmişdi. 1936-cı ildən həbs edilənə kimi Azərbaycan Meyvə-Tərəvəz Ticarəti Birliyinin direktor müavini vəzifəsini daşımışdı.

T.Salahov barəsində müxtəlif orqanlara çoxlu təxribat xarakterli "donos"lar göndərilmişdi. Nəyin bahasına olursa-olsun onu günahlandırıb məsuliyyətə cəlb etməyə, sıradan çıxarmağa çalışırdılar. 1937-ci ilin iyulunda onu "əksinqilabi fəaliyyətinə görə" ittihamı ilə gecə öz mənzilində həbs edirlər.

Akademik Ziya Bünyadov "Qırmızı terror" kitabında yazır: "T.Salahov köhnə partiya işçisi idi. Buna görə də ölkədə və respublikada nə baş verdiyini çox gözəl dərk edirdi. "Xalq düşmənləri"nə qarşı mübarizə ilə əlaqədar ÜİK(b)P MK-nin direktivləri ilə yaxından tanış idi. Həbs olunan intellektualların necə "etiraf ifadələri" verdiklərini yaxşı təsəvvür edirdi. Buna görə də o, nə ifadə verməkdən boyun qaçırdı, nə də istintaqa müqavimət göstərdi. Çünki belə hərəkət heç kəsin davam gətirmədiyi istintaqın işgəncə metodlarının tətbiqinə gətirib çıxaracaqdı".

1938-ci il iyun ayının 3-də qapalı məhkəmə iclası keçirilir. İclas 15 dəqiqədən sonra başa çatdırılır. Teymur Salahov həmin gün ən ağır cəzaya - güllələnməyə məhkum edilir. Qurbanların məhkəmələri edam yerindən on addım aralıda aparılırdı. Növbə böyük, vaxt isə az idi. 15 dəqiqəlik məhkəmə hökmünün icrası isə heç 15 dəqiqə də çəkmirdi.

Məhkumun qızı Zərifə Salahova yazır: "Bizə demişdilər ki, atama görüşmək hüququ verilmədən 10 il azadlıqdan məhrumetmə cəzası kəsilib. Biz də buna inanmışdıq və onun güllələnməsindən xəbər tutmamışdıq. 1947-ci ildə atamın nə vaxt azad olunacağını dəqiqləşdirməyə cəhd etdik. Həmin ilin avqust ayının 18-də bizi XDİK-in Oktyabr rayon şöbəsinə çağırdılar. Məndən soruşdular ki, atanı nə vaxt həbs ediblər. Cavab verdim ki, 1937-ci ildə. Dedilər ki, artıq onun vaxtı bitmək üzrədir və bu yaxınlarda gələcək, darıxmayın". Bu da Stalin rejiminin daha bir simasızlığı idi. Teymur Salahov artıq 10 il idi ki, güllələnmişdi, amma ailə üzvləri hələ də onun taleyi barədə dürüst məlumata malik deyildilər.

***"Azərbaycan"***

## Azərbaycan Respublikası Şəki Şəhər İcra Hakimiyyəti

### Şəki şəhərində 2020-ci il ərzində "İpək yolu" XI Beynəlxalq Musiqi Festivalı, "Şəhər günü", III ANİMAFİLM Bakı Beynəlxalq Festivalı"nın bağlanışı, "Novruz bayramı", "Yeni il" və digər beynəlxalq, respublika və şəhər əhəmiyyətli festival və bayram tədbirlərinin keçirilməsi üçün

***açıq tender elan edir***

2020-ci ildə Şəki şəhərində beynəlxalq tədbirlərin keçirilməsinə:

LOT - 1 - Mehmanxana və restoran xidmətləri
LOT - 2 - Səhnə tərtibatı və qurulması
LOT- 3 - Müxtəlif mal-materialların alınması (digər xidmətlər - atəşfəşanlıq, qonaqlara xatirə hədiyyələri və sair)

Tenderdə iştirak etmək üçün iddiaçılar
LOT - 1 - 200 manat
LOT- 2 - 100 manat
LOT - 3 - 80 manat

məbləğlərində pul vəsaitini aşağıdakı hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu Tender komissiyasından ala bilərlər. Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanır.

**Təşkilat: Şəki Y.X.O**
**Hesab: AZ03AIIB32051019447000201170**
**VÖEN: 3000104011**
**VÖEN: 3000072051-İcra Hakimiyyəti**
**Bank: "Kapital Bank" Şəki filialı**
**Kodu: 200703**
**VÖEN: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T.BİK: AIIBAZ2x**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: mövcud qanunvericiliyə uyğun olaraq ən səmərəli tender təklifinə, yüksək keyfiyyətə, analoji işlər üzrə təcrübəsinə, maliyyə və texniki imkanlarına.

İddiaçılar tenderdə iştirak etmək üçün LOT-lar üzrə ardıcıl olaraq **10 mart 2020-ci il saat 10:00; 11:00 və 12:00** tarixə qədər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Azərbaycan Respublikası vergilər və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *analoji işlərdə təcrübəsi, iddiaçının potensial, texniki və kadr imkanları haqqında rəsmi məlumat;*
- *iddiaçıların tender təklifləri Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.*

Tender təklifi 2 nüsxədə (əsli və surəti) tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı ilə birlikdə LOT-lar üzrə ardıcıl olaraq **18 mart 2020-ci il saat 10:00; 11:00 və 12:00-a** qədər ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə Şəki Şəhər İcra Hakimiyyətinə (2-ci mərtəbə, 3-cü otaq) təqdim edilməlidir.

Tender təklifi tender proseduru keçirildiyi tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır.

Tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı tender proseduru keçirildiyi tarixdən ən azı 60 bank günü qüvvədə olmaqla tender təklifi ilə birlikdə təqdim olunur. Bank təminatını tender təklifi zərfində təqdim etməyən iddiaçının tender təklifi etibarsız sayılır və qiymətləndirilməyə buraxılmır.

İddiaçıların tender zərfləri LOT-lar üzrə ardıcıl olaraq **19 mart 2020-ci il saat 10:00; 11:00 və 12:00-da** Şəki Şəhər İcra Hakimiyyətində (3-cü mərtəbə, 1-ci otaq) açılacaqdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Bu barədə məlumat e-tender.gov.az internet saytında yerləşdirilmişdir.

Tender haqqında məlumatları aşağıdakı ünvandan almaq olar:
Şəki Şəhər İcra Hakimiyyətinin Tender komissiyası.
Əlaqələndirici şəxs: Abbasov Qalib Nizami oğlu
Telefon: 244-37-22

***Tender komissiyası***

# "Azercell"dən Azərbaycan kinoindustriyasının inkişafına dəstək

## "Azercell Telekom" Beşinci Buktreyler Festivalının rəqəmsal tərəfdaşı qismində çıxış edir

"Azercell Telekom" MMC ənənəvi olaraq 23 aprel - Beynəlxalq Kitab Günü ərəfəsində mütaliə mədəniyyətinin təbliği və kinematoqrafiya sahəsinin inkişafı məqsədilə təşkil edilən Buktreyler Festivalının əsas tərəfdaşıdır. Daima istedadlı və yaradıcı gənclərin dəstəyinə yönələn layihələrin və sosial təşəbbüslərin fəal iştirakçısı olan "Azercell" festival çərçivəsində xüsusi olaraq "Ən Yaxşı Mobil Buktreyler" nominasiyasını da elan edir. Belə ki, mobil telefon vasitəsilə yerli müəlliflərin istənilən əsərinə çəkilən buktreylər şirkətin xüsusi münsiflər heyəti tərəfindən dəyərləndiriləcək və qalib "Azercell"dən 1000 AZN dəyərində pul mükafatı qazanacaq.

Qeyd edək ki, Buktreyler Festivalı artıq 4 ildir ki, film sənayesində yeni simaların aşkar edilməsinə böyük töhfə verir. Festival kinoaktyor, prodüser Ruslan Sabirlinin təsisçiliyi altında, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Beynəlxalq Muğam Mərkəzinin təşkilati dəstəyi ilə keçirilir. "Kitabı tanıdın, kitabla tanının" şüarı ilə keçirilən bu festival milli-mədəni irsimizin qorunması, habelə Azərbaycan ədəbiyyatının beynəlxalq müstəvidə tanıdılması üçün əvəzolunmaz bir layihədir. Yaşından asılı olmayaraq hər kəs festivalın rəsmi internet səhifəsində *(www.booktrailer.az)* qeydiyyatdan keçərək, yarışmada iştirak edə bilər. Xatırladaq ki,Beşinci Buktreyler Festivalının 1-ci yer qalibi 1000 AZN, 2-ci yer qalibləri 800 AZN və 3-cü yer qalibləri 500 AZN pul mükafatı ilə təltif olunacaqlar. Xatırladaq ki, festival üzrə müraciətlərin qəbulu fevral ayının 2-dən başlayıb. Buktreylerlərin son qəbul tarixi 1 aprel 2020-ci ildir.

## Ağcabədi Rayon İcra Hakimiyyətinin Ağcabədi Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi

### 2020-ci ildə Ağcabədi şəhəri ərazisində yolların təmirinin və abadlıq işlərinin satın alınması ilə əlaqədar

***tender elan edir***

**Tender 2 LOT üzrə keçirilir.**

**LOT-1** Ağcabədi şəhəri ərazisində yolların təmirinin satın alınması
**LOT-2** Ağcabədi şəhəri ərazisində abadlıq işlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təkliflərini möhürlənmiş, imzalanmış ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti (qiymətləndirmə bal sistemi ilə həyata keçiriləcəkdir).

Müqaviləni yerinə yetirmək üçün satınalma prosedurunun iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malık olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər göstərilən hər LOT üçün 120 manat məbləğində iştirak haqqını Ağcabədi Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin hesabına köçürdükdən sonra əsas şərtlər toplusunu ala bilərlər.

Ağcabədi Rayon İcra Hakimiyyətinin Ağcabədi Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi.
**VÖEN: 3400109921**
**H/h: AZ86CTRE00000000000002515432**
**Fond: 7y**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWİFT BİK: CTREAZ22**
**H/h: AZ41NABZ01360100000000003944**

Tender proseduru ilə maraqlananlar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət edə bilərlər: A.Həsənov, tel.: 27-5-02-24
Ünvan: Ağcabədi şəhəri, F.Əlizadə küçəsi,19

Maraqlananlar əsas şərtlər toplusunu yuxarıda göstərilmiş ünvandan ala bilərlər. Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender sorğusu prosedurunda iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *analoji işlərdə təcrübəsi, iddiaçının potensial texniki və kadr imkanları haqqında rəsmi məlumat;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin 1 faizi həcmində bank zəmanəti zərflər açılan tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olub-olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının tender təklifləri Azərbaycan dilində olmalıdır.*

İddiaçılar tələb olunan sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **19 mart 2020-ci il saat 17:00-a** qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə **07 aprel 2020-ci il saat 17:00-a** qədər (ünvan: Ağcabədi şəhəri, F.Əlizadə küçəsi, 19) təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklif zərfləri Ağcabədi şəhəri, F.Əlizadə küçəsi, 19 nömrəli ünvanda yerləşən Ağcabədi Rayon İcra Hakimiyyətinin Ağcabədi Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyində **08 aprel 2020-ci il saat 15:00-da** açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Elektrik enerjisi haqlarının yığılmasında əsaslı dönüş yaranmışdır

"Azərişıq" Açıq Səhmdar Cəmiyyəti mətbuat xidmətinin verdiyi məlumata görə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən təsdiq edilmiş "Enerji sektorunda maliyyə intizamının gücləndirilməsi proqramı"nda enerji haqlarının yığılmasının 100 faizə çatdırılması enerji təchizatı müəssisələrinə bir vəzifə olaraq tapşırıldığından həmin vəzifənin layiqincə yerinə yetirilməsi üçün "Azərişıq" ASC tərəfindən irimiqyaslı texniki və təşkilati tədbirlər görülür.

Uçot sisteminin yenidən qurulması, elektrik enerjisindən qanunsuz istifadə və enerjinin talan olunması kimi hüquqazidd hərəkətlərin qarşısının alınmasının nəticəsidir ki, ötən illərlə müqayisədə elektrik enerjisi haqlarının yığılmasında əsaslı dönüş yaranmışdır. Lakin görülmüş tədbirlərə baxmayaraq, bu sahədə işə mane olan elektrik enerjisinin talan olunması kimi neqativ hallar hələ də ciddi narahatçılıq yaradır. Bəzi istehlakçıların, xüsusən də villa, MTK, sənaye və ictimai iaşə obyektləri, hotel, istixana və s. sahiblərinin elektrik enerjisindən sayğacdan kənar istifadə etmələri, kabel xətlərinə və uçot dəstlərinə müdaxiləleri müşahidə edilir ki, bu da son nəticədə elektrik enerjisinin talanmasına səbəb olmaqla yanaşı, digər istehlakçıların, xüsusən də əhalinin enerji təchizatında ciddi problemlər yaradır.

Qeyd olunanları nəzərə alaraq, elektrik şəbəkəsinə qanunsuz qoşulan, uçot dəstinə müdaxilə edən və sair hüquqazidd hərəkətlərə yol verən istehlakçılar bir daha xəbərdar edilir ki, belə istehlakçıların elektrik enerjisi təchizatı dərhal dayandırılacaq, elektrik enerjisinin talanmasının qarşısının alınması və təqsirli şəxslərin məsuliyyətə cəlb olunmaları üçün hüquq mühafizə orqanlarına müraciət olunaraq **azerishiq.az saytında və kütləvi informasiya vasitələrində ictimaiyyət məlumatlandırılacaqdır.**

## "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi "İçərişəhər" Muzey Mərkəzi "İçərişəhər" Muzey Mərkəzinin "Bakı Foto evi"nin elan etdiyi "Arxifoto" memarlıq fotoqrafiyası müsabiqəsinin və "Arxifoto" adlı tədbirin satın alınması üzrə

***açıq tender elan edir***

Tender iştirakçılarına təklif olunur ki, dövlət satınalmalarının https://www.etender.gov.az vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, təcrübə və maliyyə vəziyyəti. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Tenderdə iştirak etmək istəyənlər 150 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi "İçərişəhər" Muzey Mərkəzi Bakı şəhəri, Böyük Qala küçəsi, 41 (əlaqələndirici şəxs: Səbinə Bağırova, telefon: (012) 492-29-10) ünvanından ala bilərlər.

**Hesab: AZ81IBAZ38090019446242419204**
**VÖEN: 1702532651**
**Bank ABB Mərkəzi filial**
**Kodu: 805722**
**VÖEN: 9900001881**
**M/H: AZ03NABZ01350100000000002944**
**S.W.İ.F.T: IBAZAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **11 mart 2020-ci il saat 11:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **19 mart 2020-ci il saat 16:00-a** qədər "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi "İçərişəhər" Muzey Mərkəzi Bakı şəhəri, Böyük Qala küçəsi, 41 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **27 mart 2020-ci il saat 11:00-da** "İçərişəhər" Muzey Mərkəzi Bakı şəhəri, Böyük Qala küçəsi, 41 ünvanında açılacaqdır.

**QEYD:** *tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) açıq tender üsulu ilə elektron satınalma (eTender) keçirir

LOT 1 - Məlumatlandırma xarakterli müxtəlif ölçülü və materialdan olan yazıların hazırlanması xidmətinin satın alınması;
LOT 2 - Fonddaxili korporativ tədbirlər zamanı istifadə üçün qəhvə maşınlarının satın alınması;
LOT 3 - Nəqliyyat xidmətlərinin satın alınması.

İddiaçılara təklif edilir ki, https://www.etender.gov.az dövlət satınalmalarının vahid internet Portalına (Portal) asan və ya elektron imzaları vasitəsilə daxil olsunlar və eTender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. eTenderdə iştirak etmək istəyən iddiaçılar hər bir LOT üzrə 100 AZN məbləğində müəyyən edilən iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra tələb olunan sənədləri və tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Tələb olunan sənədlərin siyahısı Portalda göstərilmişdir.

**Azərbaycan Respublikasının Dövlət Neft Fondu**
**Ünvan: AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165**
**VÖEN: 9900041961**
**H/h: AZ84NABZ01360400000000001944**
**Bank: Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**M/h: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T bik: NABZAZ 2C**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tələb olunan sənədləri (tender təklifi və təklifin təminatı istisna olmaqla) **12 mart 2020-ci il saat 10:00-a,** tender təkliflərini (təklifin təminatı ilə birlikdə) **27 mart 2020-ci il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. Təkliflər **30 mart 2020-ci il saat 10:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

eTenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC (ASCO) taxta materialların odadavamlı məhlullarla hopdurma işlərinin satın alınması məqsədilə açıq müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 25 fevral 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Heydər Əliyev prospekti, 152, "Çinar plaza", 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və idarənin kollektivi Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayevə əzizi

**YUSİF NURİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayevə əzizi

**YUSİF NURİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi "Bank Respublika" ASC-nin Müşahidə Şurasının üzvü Natiq Quliyevə oğlu

**EMİL QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

AGBank ASC-nin Müşahidə Şurası, İdarə Heyəti və kollektivi "Bank Respublika" ASC-nin Müşahidə Şurasının üzvü Natiq Quliyevə oğlu

**EMİL QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Mahmud Məmmədov "Bank Respublika" ASC-nin Müşahidə Şurasının üzvü Natiq Quliyevə oğlu

**EMİL QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"GünayBank" ASC-nin rəhbərliyi və kollektivi "Bank Respublika" ASC-nin Müşahidə Şurasının üzvü Natiq Quliyevə oğlu

**EMİL QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağdaş Rayon Məhkəməsinin kollektivi Şəki Apelyasiya Məhkəməsinin hakimi Rövşən Rəfiyevə anası

**RAYA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6940
Sifariş 582
Qiyməti 40 qəpik